**ŞÖVKƏT XANMƏMMƏDOVA**

# *20-dən 20-yə*

***(20 Yanvar şəhidlərinin əziz xatirəsinə həsr olunur)***

**Bakı - 2010**

***Redaktor: Telli Pənahqızı***

***Şövkət Xanməmmədova «20-dən 20-yə» (20 Yanvar şəhidlərinin əziz xatirəsinə həsr olunur)***
***Bakı, «MBM», 2010, 96 səh.***

Bu kitab bir elegiyadır. 20 illik həsrəti, ağrını, əzabı ürəyində daşıyan, amma əyilməyən, sınmayan, ruhdan düşməyən bir ananın, bir Azərbaycan qadının hekayətidir.

1990-cı ilin soyuq qış gecəsində təkcə Şövkət xanım deyil, yüzlərlə, minlərlə Ananın harayı yeri-göyü titrətdi.

Biz o günün dəhşətlərini unutmamalıyıq. Unutmamalıyıq ki, unudulmayaq.

ISBN 978-99-52-29-042-9

© Ş.Xanməmmədova
Bakı, «MBM», 2010

# REDAKTORDAN

20 yanvar faciəsindən keçən 20 ilin 20 min dərdindən, bəlasından sıyrılıb çıxdıq hamımız. 20 illik zaman kəsiyində itkilərimiz də oldu, əbədi ayrılıqlarımız da... Ancaq heç birisinin dəhşəti, xofu, göynərtisi 20 Yanvara açılan o qanlı sabahın acısı qədər bizi yandırmadı. 20 Yanvardan bəri 20 milyon qərənfilin göz yaşları ilə yuduq Şəhidlər Xiyabanındakı məzar daşlarını...

Analar yanar ağlar,
Telini sanar ağlar,
Dönər ağ göyərçinə
Yollara qonar ağlar

– deyilir bir bayatımızda. 20 ildir ki, hər səhər Şəhidlər Xiyabanının qonşuluğundakı iş yerimə – Azərbaycan Teleradio Verilişləri Şirkətinə gedəndə məzarların hansınınsa baş daşını qucaqlayıb için-için ağlayan analar görürəm. Rəvayətə görə insan bu müvəqqəti həyatdan əbədi dünyaya köç edəndə onun ruhu uca göylərə - Tanrı dərgahına qanadlanır. Ulu Yaradan da yalnız anaların ruhunu göyərçin cildində yer üzünə qaytarır ki, bu dünyanı qəfil gələn bəlalardan qorusun, balalarının, ocağının keşikçisi olsun. Elə ona görə də Göyərçin müqəddəs sayılır, onlara toxunmaq yasaq hesab olunur. Şəhid övladlarının məzarı başında ağ göyərçini xatırladan Analar da elə Tanrı quşları kimi əziz və müqəddəsdir.

Əlinizdə tutduğunuz bu kitab da bir göyərçin nəğməsidir. Bəlkə kimsə göyərçinlərin bülbül kimi oxumasının şahidi olmayıb indiyəcən. Ancaq mən bu kitabı çapa hazırlayarkən o müqəddəs səsi – bir ananın, bir xanımın, bir Azərbaycan qadının səsini, həsrət, hicran nəğməsini eşitdim.

Ömür-gün yoldaşını 20 Yanvar gecəsində itirən, onu qəfil ölümün pəncəsindən xilas etmək üçün görünməmiş cəsarət və mərdlik göstərən, ölümünü belə göz önünə alıb sevdiyi insanın, körpələrinin atasının həyatını nəyin bahasına olursa-olsun qurtarmağa çalışan bu Qadın o gecənin dəhşətlərini yaddaşında yaşadır. 20 ildir ki, o dəhşətli anlar kino lenti kimi onun gözləri önündə canlanır, 20 ildir ki, o xatirələrinin işığına sığınıb ara-sıra içindəki ağrını ağ kağızlar üstündə qara sətirlərə söyləməyə çalışır

Şövkət xanım Xanməmmədovanın mənə təqdim etdiyi 20-25 səhifəlik balaca hekayəni həyəcansız, iztirabsız oxumaq mümkün deyildi.

- İstəyirəm ki, şəhidlərimizin 20 illiyində Ramizə son borcumu da qaytarım, onun haqqında əl boyda bir kitabça çıxara bilsəm, özümü xoşbəxt sayaram – deyib əlyazmalarını mənə uzadanda, içimdən bir səs mənə pıçıldadı ki, nəyin bahasına olursa-olsun bu kitabın işıq üzü görməsinə yardımçı olmalısan.

15 gün gecə-gündüz fikrim-düşüncəm bu kitabın yanında qaldı, Şövkət xanımın o kövrək xatirələri məni də yenidən 20 Yanvar faciəsinin o sarsıdıcı günlərinə qaytardı.

Əziz oxucular, düşünürəm ki, biz zaman-zaman o günlərə qayıtmalıyıq. Qayıtmalıyıq ki, tariximiz unudulmasın, qayıtmalıyıq ki, bizim övladlarımız kim olduqlarını, haradan gəlib hara getdiklərini unutmasınlar. Çünki unutsaq unudularaq.

Mən bu kitabın araya-ərsəyə gəlməsində elə Şövkət xanım qədər həyəcan keçirən, zəhmət çəkən şəxslərə - ilk növbədə mənim Həcc qardaşlarım Rafiq Xan Sayadoğluna və Rafiq Savalana, sənətşünaslıq namizədi, məşhur musiqiçi və tədqiqatçı Abbasqulu Nəcəfzadəyə, Suraxanı rayon "Maşınqayırma" zavodunun direktoru Arif Babayevə, bir sözlə, çox qısa zaman kəsiyində kitabın çapını gerçəkləşdirən hər kəsə öz minnətdarlığımı bildirirəm.

Elə bilirəm ki, "20-dən 20-yə" bizim hamımızın Şəhidlərimizə ehtiram və hörmətimizin bariz təcəssümü, onlara minnətdarlıq borcumuzun cüzi bir hissəsi sayıla bilər...

***TELLİ PƏNAHQIZI***

***Müstəqil Azərbaycanımızın azadlığı uğrunda həlak olmuş şəhidlərimizin ruhuna ithaf olunur.***

Ramizgilin evində bayram əhval-ruhiyyəsi vardı. Uşaqlarla birlikdə ana da sevinirdi. Bu Şövkət xanımın ən yaddaqalan günüydü. Axı bu gün həm ömür-gün yoldaşının 50 yaşı tamam olurdu, həm də evlənmələrinin 15 illiyi idi.

On beş illik ailə xoşbəxtliyindən Allah-Təalanın onlara bəxş etdiyi 4 övlad payı indi onun ətrafında atılıb-düşür, analarına gücləri yetən dərəcədə kömək etmək üçün ora-bura vurnuxur, amma iş tapmadıqlarından daha çox əl-ayağa dolaşırdılar.

– Ana, qonaqlarımız çox olacaq?

– Hə, qızım.

– Ana, nənəm də gələcək?

– Hə, əzizlərim, nənəsiz nə məclis? Ancaq yaxşı olar ki, siz əl-ayağa dolaşmaqdansa, faydalı bir iş görün, səs-küy salıb mənə mane olmayın. Bax qızım, sən gülləri sula, qoy qaqaşın da zibilləri atsın.

– Mən...mən sənə kömək edəcəm. Çünki atamı hamıdan çox mən istəyirəm, – bu balaca Əbifəzin səsi idi.

– Yaxşı, yaxşı mənim ağıllı balam, götür bu çəngəlləri, səliqə ilə düz stolun üstündəki boşqabların yanına, sonra da salfetkaları qoy...

– Bu saat, anacan, – uşaq güllə kimi mətbəxdən çıxdı.

Qaqaş çağırdıqları 8 yaşlı Əbülfəz atasını hamıdan çox istədiyini sübut etmək üçün bu gün daha çox canfəşanlıq edirdi.

...Səhər həyat yoldaşını işə yola salandan sonra evin xanımı axşamdan planlaşdırdığı yığıncağa hazırlıq görməyə başladı. İşi çox idi. Salatlar hazırlanmalı, kabablıq ət doğranılıb basdırma olunmalı, dolma bükülməli, plov dəmlənməli, qonaqları yüksək

səviyyədə qarşılamaq üçün hər kiçik detala diqqət yetirilməliydi.

Ötən dəqiqələr Şövkət xanımın həyəcanını daha da artırırdı, hansı işdən yapışacağını belə konkretləşdirə bilmirdi. Saata baxdı, 9-un yarısı idi.

– Deməli, saat 12-yə kimi salat və soyutma, 12-dən 4-ə kimi isti yeməklər hazırlanmalıdı. Qohumlar da dolmaya kömək edər. Qalır plovun qarası. Plovu qonaqlar gələnə yaxın süzərik. Bu işin də ustası Aliyəynən anamdır...

İşləri planlaşdırandan sonra (o həmişə planlı iş görməyi xoşlayırdı) önlüyünü bağladı. Qapının zəngi çalındı. Gələn anası ilə Aliyə idi.

– Buyurun, vaxtında gəlmisiniz. Ramizi indicə yola saldım. İstəmirəm heç nə bilsin, mən ona bu axşam gözəl bir sürpriz hazırlamışam. Həm 50 yaşını, həm də ailə qurmağımızın 15 illik yubileyini bu geçə deyd eləyəcəyik.

– Çox mübarək, xeyirli olsun, Allah cansağlığı versin, balalarınızın xeyrini görəsiniz.-anası Sara xanım məhəbbətlə qızını bağrına basdı.

– Qonaqlarınız çox olacaq? – Sara xanımın arxasınca evə girən Aliyə soruşdu.

– Yox, ancaq qonşuları çağırmışam, bir də qohumlar gələcək. 50 nəfərə yaxın adam olacaq. Axşamdan heç nə bişirməmişəm. Dedim ki, qoy Ramiz şübhələnməsin, soruşmasın ki, bu nə hazırlıqdır, nəyi qeyd edirik yenə? Əgər Ramizin bundan xəbəri olsa, onda sürprizin ləzzəti də qaçar...O bizim üçün hər şey edir, özünü oda-közə vurur, uşaqların da, mənim də hər bir arzumuzu yerinə yetirir, amma bircə özünə qıymır. Bəlkə də bu gün doğulduğunu belə unudub...Nə isə, səni də qapının ağzında saxladım, keç içəri, bir az rahatlan...

– Bəs uşaqlar hanı, səsləri gəlmir...

– Könül indi gələcək, dərsə getməyib, bir az nasazdı. Ceyhunsa dərsdən çıxıb əmisini çağırmağa gedəcək, balacalar da mənə kömək eləmək üstündə yarışa giriblər...

Anası qürurla gülümsündü.

– Ay onlara qurban olum, şükür Allaha, nəvələrim böyüyüblər, analarına kömək eləyirlər. Yaxşı, qoy mən də qaynananla görüşüm, gəlirəm, – deyə Sara xanım o biri otağa keçdi.

Əbülfəz yenə mətbəxtdəydi. Anasından yeni tapşırıq gözləyirdi. O ikinci növbədə oxuyurdu, deyəsən, heç bu gün dərsə getmək niyyəti yox idi. İndi də kömək etməkdən çox maneçilik törətsə də, yenə əl-ayaq edirdi.

Atrıq masa demək olar ki, hazır idi. İşin əsas ağırlığı ancaq mətbəxdəkilərin üstünə düşürdü. Salat üçün bütün məəzəmələri yuyub bir tərəfə yığmışdılar. Bircə qalırdı doğranıb qarışdırılması. Mətbəxdəkilərin başı işə necə qarışmışdısa, vaxtın keçdiyindən heç xəbər tutmamışdılar. Hava yavaş-yavaş qaralırdı.

– Ay bala, sən get hazırlaş, paltarını dəyiş, özünü səliqəyə sal, indicə qonaqlar gələcək, – qayınanası Şövkəti tələsdirdi.

– Bu dəqiqə qurtarıram, – deyə Şövkət xanım salat dolu qabları masaya düzməyə başladı. Sonra da bir addım kənara çəkilib diqqətlə stolun üstünü nəzərdən keçirdi, hər şeyin yeri-yerində olub-olmadığını yoxladı. Deyəsən elə bir kəm-kəsri yox idi yubiley masasının.

– Hə, indi hər şey qaydasındadır, mən də gedib geyinə bilərəm.

Öz otağına keçdi. Həmişə qonaqlığa və ya gəzməyə gedəndə hansı paltarı geyinəcəyini, saçını necə düzəldəcəyini Ramizlə məsləhətləşirdi, həyat yoldaşı da ona dəyərli məsləhətlər verirdi, o ərinin yanında bəzəkli tovuz quşunu xatırladırdı. Şövkət xanım güzgününün qarşısında durub bir-bir geyimlərini

nəzərdən keçirir, hansını geyinəcəyini düşünürdü. Seçim çox müxtəlif olmasa da, qadın istəyirdi ki, bu qanaqlıqda geyinəcəyi paltar Ramizin ürəyincə olsun.

Ailə qurduqları bu 15 il ərzində Şövkət həmişə Ramizin zövqünə arxalanıb, onun bəyənib aldıqlarını - istər geyim olsun, istər ətir və ya da zinnət əşyası böyük həvəslə qəbul edib, sevə-sevə, həm də daxili bir qürur hissi ilə geyinib, ətirlənərdi.

Geyinəcəyi paltarı artıq qərarlaşdırmışdı. O paltara uyğun ayaqqabını da qutudan çıxardı. Qızıl əşyalarını da mücrüdən götürdü.

...Xəyal onu çox uzaqlara, 15 il əvvəlki günlərə qaytardı. Ramiz ilk görüşdə ona əqiq qaşlı gözəl bir üzük bağışlamışdı. Şövkət xanım bu üzüyü çox xoşlayırdı. Onun incə barmağına bu üzük çox yaraşırdı. Bu gün də o üzüyü taxdı, həmin üzüyə uyğun gələn təzə donunu geyindi. Saçlarını düzəltməyə çətinlik çəkmədi. Saçları qısa olduğundan ona forma vermək də o qədər də çox vaxt tələb etmirdi.

Qapı zəngi Şövkət xanımı təlaşlandırdı. Mətbəxdəkilərə səsləndi:

– Bir az əlli tərpənin, deyəsən, Ramizdi, gələn. Könül, qaç qonaq otağının qapısını ört, Ülkər, sən də qapını aç, amma ataya heç nə demə ha..

Ceyhunla Əbülfəz də artıq qapının ağzındaydılar. Adəti üzrə yenə hay-küylə, xoş əhval-ruhiyyə ilə içəri girən Ramiz uşaqlarının dördünü də qapıda, geyimli-kecimli görəndə:

– Salamlar, yenə hara belə hazırlaşmısınız, gedəcəyiniz yer evimizdən yaxşıdırsa, məni də aparın, – deyə şuxluqla soruşdu, – kinoya gedirsiniz, yoxsa teatra, bəlkə futbola hazırlaşmısınız, ananız gedirsə, məni də unutmayın.

Uşaqların dördü də israrla susdu, amma hamısının gözləri sevincdən, fərəhdən par-par yanırdı. Uşaqlar "ata, doğum

günün mübarək!”-deməkdən özlərini güclə saxlayırdılar.

Ramiz yenə balalarını sorğu-suala tutdu:

– Bəlkə nənən bizi düşbərəyə, qutaba qonaq çağırıb, hə...

Geyinib-kecinmiş Şövkət xanım da otaqdan çıxanda daha Ramizdə şübhə yeri qalmadı:

– Ay Şövkət, hara belə? Bu uşaqlardan söz qopara bilmədim, kim qonaq çağırıb bizi, hara hazırlaşmısınız?

Şövkət övladlarını çətin vəziyyətdən qurtarmağa tələsdi:

– Bu gün heç yana getməyəcəyik, ay Ramiz, əksinə, hamı bizə qonaq gələcək. Bu gün biz öz evimizdə sənin yubileyini qeyd edəcəyik.

Uşaqların dördü də birdən atalarının boynundan sallandılar.

– Ata, 50 yaşını təbrik edirik.

Qəlbi fərəhlə çırpınan Ramiz balalarını bağrına basdı, bir-bir onların üzündən öpdü, sonra Şövkət xanıma sarı çevrildi:

– Bunlar nə tez böyüdülər, ay Şövkət, mən nə tez 50-yə çatdım?- Ramizin gözləri yaşardı.

– Sənə sürpriz hazırlamışıq, – bunu Əbülfəz dedi və yüyürüb qonaq otağının qapısını tayba-tay açdı, – sən hələ bunu görməmisən, bax bu süfrənin hazırlanmasında mən də anama kömək etmişəm, – uşaq iftixarla atasına baxdı.

Ramiz paltosunu soyuna-soyuna Şövkət xanımın burnuna çırtma vurdu:

– Axşamdan sən özünü bir az qəribə aparırdın, deməli bu imiş səbəbi hə?

Kaş mənə də deyəydin, ən azı dükan-bazar işində sənə yardımçı olardım. Yəqin ki, qonaqlarımız da olcaq.

– Qonaqlar deyəndə, elə özümüzünkülərdir. Hə, bir də qonşular. Kənar adam yoxdur, mən heç kəsi çağırmamışam, bunlar bilənlərdir, özləri zəng vurublar ki, axşam sizdəyik, mən də hazırlığımı görmüşəm..

Ramiz otağa keçdi. Şövkət xanım mətbəxə tələsdi. Bir azdan gətirdiyi pürrəngi çayı hələ də təəccüb içərisində süfrəyə baxan ərinin qarşısına qoydu.

– Hava çox soyuqdur. Sən çayını iç, bir az isin. Sonra istəsən paltarını da dəyişərsən. Bir azdan qonaqlarımız da gələcək.

* * *

Ramizin ad günü gözlənildiyindən də şən keçdi. Şövkət xanımın başına gəlinlik fatası da qoydular. Onların şərəfinə "Vağzalı" çalındı.

Qonaqlar onların 15 illik ailə həyatını və ev sahibinin 50 illik yubileyini çox böyük fərəhlə qeyd edirdilər. Ancaq Ramiz nədənsə narahat idi. Gülüb-danışsa da fikrini güclə cəmləşdirirdi, özü də birdən-birə daxilini didib parçalayan qəfil duyğulardan yaxa qurtarmağa çalışırdı.

Şövkət xanımın baxışını üzündə hiss edəndə nədənsə ona elə gəlirdi ki, bu vida şənliyidir. O daha heç vaxt sevdiyi insanlarla, əzizləri, doğmaları ilə bir süfrə arxasında əyləşməyəcək, əylənməyəcək, deyib gülməyəcək.

Şövkət xanım isə xöşbəxt idi. Deyib-gülür, qonaqlarını şənləndirmək üçün pianoda çalır, mahnı oxuyurdu. Uşaqlar da analarından geri qalmamağa çalışırdılar. Bütün məclis boyu hamı onlara qoşulub rəqs edir, şənlənirdi. Atalarını nə qədər sevdiklərini sübut eləmək üçün uşaqlar bir-biri ilə bəhsə girmişdilər.

Ramiz gec evlənmişdi. İndi bir-birindən gözəl uşaqlarına baxanda buna təəssüflənirdi. Ürəyindən keçən gizli sızıltını boğmağa çalışsa da daxilindəki bir səs yorulmadan pıçıldayırdı:

– Bax, vaxtında evlənsəydin, balalarının da həddi-buluğa çatdığını görərdin, onları evləndirər, yerbəyer eləyib atalıq

borcundan çıxardın, bu yaşında sən də nəvə sahibi olardın, bu dünyadan arxayın gedərdin.

Gedərdin... niyə belə düşünürdü, vaxtsız-vədəsiz hara getməyi planlaşdırırdı, hara tələsirdi, niyə tələsirdi ki? Sap-sağlam, gümrah adamıydı, ağrıyan bir yeri də yoxu idi ki, narahatlığına əsas olsun...

– Mənim yaşıdlarım nəvə sahibidir. Mən isə...Bəs mən bunları nə vaxt boya-başa çatdırıb evləndirəcəyəm, nə vaxt baba olacağam? - düşündüklərini nə vaxt dilə gətirdiyini heç özü də hiss eləmədi. Əvvəlcə elə bildi ki, yenə də ürəyində özü-özü ilə danışır, səsini kimsə duymur, dediklərini kimsə eşitmir. Amma Arifin səsini eşidəndə başa düşdi ki, onun dediklərini hər kəs eşitdi.

– Fikir eləmə, qardaşım, 16 yaşı tamam olan kimi Ceyhunu evləndirərsən, arzuların gerçəkləşər, o günə nə qalıb ki? - deyə dostu ona ürək-dirək verdi.

– Mən istəyirəm Ceyhun prokuror olsun, maşallah, yaxşı oxuyur, yəqin ki, öz gücünə qəbul oluna biləcək. Əbülfəzi cərrah görmək istərdim. Amma o memarlığa meyillidir. Bütün günü oyuncaqlarla oynayır, özü də ancaq "ev tikir, bina ucaldır".

Asya da sözə qarışdı:

– Heç qızlarından danışmırsan, ay Ramiz, -Asya böyrünə qısılmış Ülkəri qucağına alıb üzündən öpdü, -atası, bəs qızların hansı peşəni seçsin?

– Ülkər həkim olacaq, Könül isə müəllimə.

Şövkət xanım ərinin üzünə gülümsəyib ərklə :

– Nə yaxşı, deyəsən sən uşaqların yerinə onların gələcəkdə seçəcəkləri sənəti də özün müəyyənləşdirmisən axı, – dedi, – qoy hələ böyüsünlər atası, onda heç bizdən soruşmayacaqlar ki, müəllim olum, ya memar... Ürəkləri necə istəyər, o cür də

hərəkət eləyəcəklər. Eh, təki canları sağ olsun, dünyamızda əmin-amanlıq olsun, bütün balalar xoşbəxt olsunlar, bizimkilər də onların arasında.

Şövkət qürurla balalarını süzdü. İlahi bu an o necə xoşbəxt, necə bəxtiyar idi. Dünya onun gözündə nura boyanmışdı bu saatlarda, ürəyi fərəhlə döyünürdü.

Ramiz sakitcə məclisdəkiləri süzüb, köksünü ötürdü:

– Ya qismət, ya qismət... nə bilim vallah, bu mənim balalarıma tövsiyyəm, övladlarıma arzularımdır.

Arzular... Həyat arzular üzərində qurulur, insan bütün ömrü boyu arzularla yaşayır. Ancaq arzular həmişə həyata keçirmi? Həmişə çin olurmu?!

Artıq qonaqlar dağılışmışdı. Yenə hər tərəfdə səliqə-səhman bərqərar olunmuşdu. Sanki heç bir saat əvvəl 50 nəfərlik qonaqlıq bu evdə olmamışdı. Artıq qızlar öz otaqlarına çəkilmişdilər, oğlanlar isə nənələrinin yanında idilər, hərəsi bir tərəfdən nənələrinin boynunu qucaqlayıb, yalvarırdılar.

– Nənə, bizə ya keçmişdən danış, ya da maraqlı bir nağıl...

Ramiz televizoru açdı.

– Şövkət, deyəsən, bu gün "Minik sərçəçik" filmi göstəriləcək.

– Hə, Ramiz, sənin sevdiyin film.

Ramiz kresloda yerini rahatlayandan sonra:

– Bilirəm, yorulmusan, – deyə Şövkətə müraciət etdi, - ancaq mənə bir stəkan çay versən, lap yerinə düşər.

Şövkət çay gətirmək üçün mətbəxə keçdi. 2 stəkan çay süzüb qonaq otağına qayıtdı.

Ramiz "Xəbərlər" proqramına baxırdı.

– Yenə də Qarabağdan danışırlar. Belə getsə, bu işlərin axırı heç yaxşı olmayacaq. Qonşumuzun qohumları Ermənistandan qovulublar. Ah, biləsən bir nələr deyirlər. Bu Qarbaçov SSRİ-

nin axırına çıxmasa deyəsən rahat olmayacaq. O qaniçənin göstərişilə azərbaycanlılardan ov tüfənglərini də yığışdırıblar. Amma o heç kəsdən utanıb-çəkinmədən Ermənistana bol-bol silah göndərməkdən çəkinmir, dünyaya da bəyan edirlər ki, Azərbaycanda ekstremist qüvvələr fəallaşıb, ermənilərin hüquqları tapdanır...Bu qədər də həyasızlıq olar? – Ramiz əsəbi halda yumruğunu düyünləyib stola çırpdı.

– Ramiz, mən yaman qorxuram, görəsən müharibə başlaya bilər? Bunlar görəsən nə fikirləşirlər, niyə bu ermıniləri susdurub yerində oturdan tapılmır, bu xalqın səbrini nə qədər sınayacaqlar, bu işlərin bir axırı olacaq, ya yox?- Şövkət xanım üşənmiş kimi oldu və yavaşca ərinə sığındı.

– Ay əzizim, sən niyə qorxursan, axı? - Ramiz zarafatla güldü, – mənim artıq 50 yaşım var, arxayın ol, bu yaşdan sonra məni müharibəyə aparmayacaqlar, oğlanlaramız isə hələ balacadır, onlar böyüyənəcən, bu ermənilərin də Azərbaycandan kökü kəsiləcək, inşallah...

Şövkət az qala fəryad qopardı:

– Sən nə danışırsan, mən səni tanımıram, bəyəm? Allah eləməsin, ara qarışsa özünü odun içinə atan birincilərin arasında sənin qabağa düşəcəyinə heç şübhə eləmirəm. Allah özü qorusun, Allah özü ermənilərin də, onların ayağının altına daş qoyanların da cəzasını versin, inşallah!

Ramiz Şövkətin həyəcanını, təşvişini hiss etdiyindən ciddiləşdi, bayaqkı zarafatından əsər-əlamət qalmadı:

– Allah eləməsin, bir hadisə baş versin. Heç kəs dözməz, bu təhqirə. Səbrin, dözümün də bir həddi var. Deyirlər su boğazına çıxanda meymun balasını da ayaq altına qoyur. Belə getsə, bütün xalq ayağa qalxacaq. Sonrası da nə olacaq, bunu yalnız Allah bilir...

– Ay Ramiz, gəl söhbəti dəyişək, bu mövzu bizim yaralı

yerimizdir, ancaq təəssüf ki, xalqın rəyini soruşan, xalqla hesablaşan yoxdur. Bu xallı köpəkoğlu hələ çox oyunlardan çıxacaq, görək başımıza nə gəlir. Azadlıq meydanındakı mitinqlərdə də deyiblər ki, Qarbaçov xalqı hədələyib ki, belə getsə, Bakıya qoşun göndərəcəklər. Allah, hansı xeyirdir onu versin...

Şövkət xanım yorğunluğunu da unutmuşdu, yuxusuzluğunu da. Qarabağda baş verənlər bir vətəndaş, bir insan, bir ana kimi onu da narahat edirdi. O da bilirdi ki, əsrlər boyu ermənilər bu xalqın torpağına göz dikib, yersiz-yurdsuz, olmalarına baxmayaraq məhz bizim torpaqların hesabına özlərinə respublika yaradıblar, ölkə qurublar...

O həyat yoldaşının dərin fikrə getdiyini görüb daha çox narahat oldu. Qadın bu gecənin nəşəsini, sevincini pozmaq istəmirdi, ona görə də yenə söhbətin yönünü dəyişməyə çalışdı:

– Ay Ramiz, sənin bu filmini deyəsən bu gün göstərməyəcəklər.

– Yox, 10 dəqiqəyə başlayacaq, amma daha mənim heç o filmə baxmağa da həvəsim qalmadı.

Ramiz hələ də ağır düşüncələrin məngənəsində idi. O, Şövkət sarı çevrilib təəssüflə dedi:

– Əzizim, bu gün tüfəngi aparıb təhvil verdim.

Şövkətin təəccüblə baxdığını görüb:

– Ov tüfəngini deyirəm də. Milisdən neçə dəfə adam göndərmişdilər ki, silahını versin. Guya o tüfənglə mən bu boyda imperiyanın topunun-tüfənginin qabağına çıxa bilərəm...

O elə bil nə isə demək istəyirdi, ancaq qərarlaşdırıb, dilinə gətirməyə ürək eləmirdi. Sonra nəsə fikirləşib, qəti addımlarla yataq otağına getdi, tez də qayıtdı. Əlində bükülü nə isə var idi.

– Bu nədir, ay Ramiz?

– Silahdır, tapanca, qorxma, bunu dar gün üçün almışam.

İndiki zamanda evdə silah olsa, yaxşıdır. Çox qarışıqlıqdır. Bilmək olmaz. Erməni dığaları ölməyib, ölməyəcək də... bunu əlçatmaz bir yerdə saxla, yerini bir sən bil, bir də mən. Çalış uşaqların gözünə dəyməsin, birdən götürüb qurdalayarlar, Allah qorusun...

– Ay Ramiz, yadına gəlir qonşumuz, üzbəüzdəki erməni ailəsini deyirəm e... Bakıda ara qarışanda onlar da bir müddət şəhərdən çıxıb getmişdilər. Sonra nədənsə geri döndülər. Dedilər ki, icazə veriblər onlara, qayıdıb gəliblər ki, ev əşyalarını aparsınlar. Sən ezamiyyətdə olanda Ermınistandan güclə qovulan azərbaycanlıların vəziyyətindən qeyzə gələn qonşular tökülüşüb gəldilər, başladılar onların da qapısını sındırmağa. İçəridən səs gəlmədiyini görüb çıxıb getdilər. Ara sakitləşəndə gördüm qapı döyülür. Açdım. Qonşu idi, kiçik oğlunun əlindən tutub dayanmışdı kandarda. Mənə yalvarırdı ki, qoy uşaq bir-iki günlüyə sizdə qalsın, mənə bir şey olsa, heç olmasa uşaq sağ qalsın.

– Vallah, bizim heç bir günahımız yoxdur, heç mən bilmirəm Ermənistanın qapısı haradan açılır, oradakılar dünənəcən heç bizi adam yerinə qoymurdular, bizə müsəlmandandönmə deyirdilər.İndi başlayıblar bizim adımızdan danışmağa. Şövkət bacı, iki gündür qorxumuzdan evdən bayıra çıxa bilmirik. Bu uşağı yedirtməyə heç nə tapa bilmirəm. Qurban olum, mənə kömək elə!

– O boyda kişi az qalırdı ayaqlarıma düşüb yalvarsın. Ramiz, bilmədim neyləyim. Ermənistandan qovulanların döyülmüş, eybəcər hala salınmış sifətini, ürəkləri parçalayan söz-söhbətini xatırladım, bircə anlığa düşündüm ki, bizim camaatın başına gətirilən müsibətlər bizim onlara elədiklərimizin yanında heç nədir, odur ki, dedim:

– Məndən kömək gözləmə, nə səni, nə də uşağını evə

buraxa, sizi gizlədə bilmərəm. Əğər bundan qonşularım xəbər tutsa, sonra mən o zülm-zillət görmüş insanların üzünə necə baxaram. Onda gərək köçüb gedəm bu məhəllədən..

Kişi yalvardı ki, heç olmasa, bu uşağa bir az yemək ver, iki gündür acdır...

Mən tərəddüd içində qaldım, uşağın üzünə baxdım. Gözlərindən giləl変ən yaş yanağından üzü aşağı yuvarlanırdı. Mənə elə baxırdı, elə baxırdı ki... Mətbəxə getdim, gətirdiyim yavan çörəyi körpəyə uzatdım. Uşaq cəld çörəyi əlimdən alıb acgözlüklə ağzına apardı, iri tikələri az qala çeynəmədən içəri ötürməyə tələsdi. Bir yandan yeyirdi, bir yandan ağlayırdi, amma gözlərini də mənim gözümdən ayırmırdı. Onun gözlərindəki ifadə tüklərimi ürpəşdirirdi.

Kişi yenə də yalvarırdı, bəlkə, uşaq bir neçə saatlığa sizdə qalsın, bizim dalımızca maşın gələcək, bu gecə mütləq şəhərdən çıxıb gedəcəyik.

Ancaq erməni daşnaklarının bizimkilərin başına gətirdikləri müsibətləri xatırlayanda dedim ki, ərim evdə yoxdur, mən özbaşına heç nə edə bilmərəm. Söhbətə qulaq asan Ramiz:

– Bax, indi görürsən silah nəyə lazımdır? Bizi bilə-bilə, qəsdən tərkisilah ediblər ki, gözümüzü qorxutsunlar, bizi diz çökdürsünlər ki, onların dediklərini qəbul eləyək. Ancaq biz öz balalarımızın gələcəyi naminə, onları qorumaq üçün yenə də ehtiyatımızı əldən verməməliyik. Götür, gizlət bu silahı...

– Ay Ramiz, sən məni lap qorxudursan, – Şövkət ehtiyatla bir uşaq oyuncağına oxşayan balaca tapançaya, bir də israrla silahı ona uzadan ərinə baxdı, – məncə hər şey yaxşı olacaq. Biz sülhsevər ölkəyik, bizim millətin bir günahı yoxdur. Bu boyda dünyaya meydan oxuyan SSRİ-də kimdir öz vətəndaşının qəsdinə duran. Beş-on erməni dığasının atdanıb-düşməyinə də yəqin ki, bir tədbi görərlər. Vallah, belə getməz,

hər şey yaxşılıqla həll olunacaq, bax görərsən...

– Ay arvad, sən bunlara çox güvənmə, heç kəsə də yazığın gəlməsin. İlana zəhər verən, aləmi bir-birinə qatan elə bunlar deyilmi? Onlara üzüdönük erməni deyiblər. lazım gələndə tülki cildinə girirlər, lazım gələndə canavara dönürlər. Qarbaçov kimi başı xaraba da belə iki üzli, mindilli, fırıldaq və alçaq adamlar lazımdır ki, istədiyini eləyə bilsin. Görmürsən, ermənilərə necə havadarlıq edir, ermənilər də nə ondan nə də arvadından əl çəkirlər... Bütün dünya da onları müdafiə edir. Amerikadan, Fransadan, Yunanıstandan onlara dəstək verənlərin sayı çoxalır. Belə getsə, bizi təkləyəcəklər. Bu xəmir hələ çox su aparacaq.

– Eh, mənim bu siyasətdən heç başım çıxmır, dovşana qaç deyirlər, tazıya tut! Bizim silahlarımızı əlimizdən alırlar, onları isə silahlandırırlar. Daha bunun nəyi ədalətli oldu ki? Bizə bu siyasət lazım deyil, biz siyasətdən uzaq adamlarıq- deyə Şövkət ərini də özünü də bu qorxulu fikirlərdən uzaqlaşdırmaq istədi:

– Bu film niyə başlamadı, axı?

Ramiz hələ də öz aləmində idi. Handan-hana ağır-ağır dilləndi:

– Elə demə, Şövkət, əzizim. Vətən, xalq darda olanda hamımız bir-birimizə dayaq olmalıyıq. 1988-ci ildə sovet quruluşuna, arxalanan daşnaklar Qərbi Azərbaycandan bizim soydaşlarımızın kökünü kəsməkdən ötrü soyqırm törətdilər. Ermənistandan məcburi, silah gücünə azərbaycanlıları öz ata-baba yurdlarından didərgin saldılar. Sağ qalanlar Azərbaycana pənah gətirdilər. Görmürsən yazıqlar nə vəziyyətdədir. Çoxunun nə evi var, nə də fərli-başlı bir işi. Axı, onların çoxu kənddə-kəsəkdə böyüyən adamlardı, ömrü boyu əkin-biçinlə, mal-qara saxlamaqla məşğul olublar, onların bu şəhərdə, bu asfaltın üstündə nə işləri var. Gərək bizimkilər də tələb

eləyəydilər ki, ermənilər Dağlıq Qarabağdan Ermənistana köçürülsün, azərbaycanlılar da ora yerləşdirilsin. O zavallı insanlar hər şeylərini itiriblər, bu şəhər onların sağlamlığını da əlindən alacaq.

Şövkət xanım ürəyinin neçə həyəcanla çırpındığını hiss eləyirdi, sifəti od tutub yanırdı. Durub vanna otağına keçdi, əl-üzünə su vurub otağa qayıtdı. Ramizin gözləri ekranda olsa da fikri ayrı yerdə olduğundan heç Şövkətin qayıtmasından da xəbər tutmadı.

– Çayını təzələyim, yəqin ki, bu soyuyub.

Ramiz dinmədi. Sakitcə Şövkətə baxdı...

* * *

Şövkət xanım onda bilmirdi ki, qarşıda onu necə böyük müsibətlər, sınaqlar gözləyir. O hələ bilmirdi ki, düz bir ay sonra onun bu kiçik ailəsi hansı oddan, alovdan keçəcək. Heç ağlına da gətirmirdi ki, indi şəfqət və məhəbbətlə ona baxan əri qəfil bir güllənin qurbanı olacaq, şəhidlik zirvəsinə yüksələcək. Həmişə şux, zarafatcıl, nikbin, həyatsevər, xeyirxah bir insan olan əri onun qolları arasında inləyə-inləyə can verəcək və o da ərini, dünyada hər kəsdən və hamıdan çox sevdiyi, inandığı və güvəndiyi bir kişini ölümün pəncəsindən xilas edə bilməyəcək. Ağlına gətirə bilməzdi, o soyuq yanvar gecəsi sifətləri daşa dönmüş imperiya əsgərlərini üzünə tüpürəcək, soyuqda göyərmiş əlləri ilə ərinin son nəfəsdə "üşüyərsən bunu gey" deyib ona uzatdığı pencəyini yaxasını açıb o əsgərin qarşısında dayanaraq dəlicəsinə bağıracaq: "Strelyay, i v menya strelyay, qad, strelyay" – deyəcək. O əsgər də bir qadının, bir ananın fəryadı qarşısında kiçiləcək, dili dolaşa-dolaşa: "Eto ne mı, oni uje uyexali, eto ne mı" – deyib qaça-qaça ondan uzaqlaşacaq.

Şövkət xanım o gecə heç ağlına bələ gətirməzdi ki, bu gün şadlıq-şadyanalıq içində üzə gülən evinin divarlar 40 gün ağı, bayatı eşidəcək. Şövkət xanımım həsrətdən, dərddən cadar-cadar olmuş ürəyindən təzə-təzə bayatılar süzüləcək:

Bu yollar, qarlı yollar,
Qarlı-boranlı yollar,
Əzizim gecə getdi,
Siz deyin, hanı yollar?
Bu qeçə qərib gecə,
Zülfünü sərib gecə,
İgidlər arasında
Ramizi görüb gecə.

Çiçəklə, güllə gəldi,
Həftəylə, illə gəldi,
Şəhidlər aparmağa
Bir qəfil güllə gəldi.

Eləmi gecə gəldi,
Bilmədim necə gəldi.
Gündüz qaçıb gizləndi
Dərdlərim gecə gəldi...

O gecə xoşbəxt, bəxtiyar ailənin 4 kiçik övladı qonşu otaqlarda rahat uyuyurdular. Onlar da bilmirdilər ki, bu gecə əslində ataları onlarla vidalaşırmış, onlara vəsiyyət eləyirmiş, hələ dünyanın istisini-soyuğunu görməyən bu körpələrə əslində gələcək həyat yollarını nişan verirdi.

Şövkət xanım ağlına belə gətirməzdi ki, cəmi bir aydan sonra çoxdan unudulmuş Şəhid sözü Azərbaycan xalqının

leksikonuna daxil olacaq. Qaçqın, məcburi köçkün, şəhid yetimləri, şəhid ailələri kimi müasir sovet adamına yad olan ifadələr gündə milyon dəfə səslənəcək. Şəhid sözünün ağırlığı, dəhşətli, əzablı, kədərli və müqəddəs möhrü onun da qapısına vurulacaq. Onun balalarına şəhid övladı deyiləcək, şəfqətlə, təəssüflə, sevgi ilə başlarına sığal çəkəcəklər. Şövkət xanım gözəl gözlərinə əbədi bir kədər qonacaq.

1989-cu ildə Azərbaycanın azadlıq hərəkatında mühüm bir hadisə baş verdi. 1988-ci ildə Sovet qoşunlarının rəhbərliyi ilə erməni daşnakları Ermənistandan azərbaycanlıları silah gücünə qovdular. Yurdsuz qalan qaçqınlar Azərbaycana pənah gətirdilər. Gələnlər danışdığı hadisələr, real faktlara söykənən xatirələr xalqın müxtəlif təbəqələri arasında bir çaxnaşma, gərginlik yaratmışdı. İnsanların coşub-daşan etiraz dalğasının miqyası gündən-günə artırdı. İşğalçılara qarşı bütün xalq mübarizəyə qalxmışdı. Azadlıq meydanı təlatümlü dənizi xatırladırdı.

"Bakıya qoşun gəlir!" – bu sözlər hamıda bir xof, qorxu yaratmışdı. Hamıya aydın idi ki, bu qoşun Bakıya elə-belə, boş yerə gəlmirdi. Xalqın azadlıq uğrunda apardığı mübarizəni boğmaq, etiraz səsini batırmaq məqsədilə göndərilirdi bu qoşun. Bütün, şəhər, bütün Azərbaycan həyacan və xof içərisində gözləyirdi.

1990-cı ilin ilk günündən vəziyyət daha da gərginləşirdi.

Şövkət xanım çox narahat idi. Qayınanası xəstələnmişdi. Ona baş çəkməyə getməliydilər. Gülxanım ananın öz evinə getməsinə razılıq verdiyinə görə özünü indi günahlandırırdı.

Ramiz də evə tez gəlmişdi. Yenə də qayğılı, fikirli idi.

- Şəhərin bu qarışığında uşaqları evdə tək qoymaq olmaz. Yaxşısı budur, gözləyək, uşaqlar da dərsdən gəlsin, bir yerdə gedək.

Ramizdən səs çıxmadığını görüb sözünə davam etdi:

– Yorulmusansa, bir az uzan, uşaqlar gələnəcən sən dincəl, mən onlara dəyişək yığım.

– Deyəsən, orada çox qalası olacağıq, – deyə Ramiz fikirli-fikirli dilləndi.

– Yox, ananı da götürüb evə qayıdarıq. Yanımızda olsa yaxşıdır, iynəsinə-dərmanına özüm nəzarət edərəm.

– Şövkət, sən tədarük görsən yaxşıdır. Vəziyyət yaman gərginləşib. Bəlkə, orada qalası olduq. Kənd yeridir, oralar şəhərə nisbətən sakitlikdir...

– Yaxşı, yaxşı, nə deyirəm, tədarüklü gedərik, mən yığışaram.

Şövkət xanım, əli gəlməsə də, uşaqlara dəyişək götürdü.. Qapının zəngi çalındı.

– Ramiz, uşaqlardır, qapını aç, gediriksə, tez gedək, axşama qalmayaq. Anadan nigaranam.

– Yaxşı...

Bir azdan Ramiz balalarını sorğu-suala tutmuşdu:

– Hə, deyin görüm, kim beş alıb?

– Məndən dərs soruşmayıblar- kiçik oğlu burnunun altında mızıldandı.

– Məndən də...bizdə, ümumiyyətlə, dərs keçməyiblər, aləm qarışıb bir-birinə – bunu da böyük oğlu dedi.

– Niyə? – Şövkət xanım təəccüblə soruşdu.

– Bilmirəm, nələrsə baş verir. Deyirlər Moskvadan qoşun göndəriblər. Sovet Ordusu Bakıya gəlib bizi qıracaq...

Şövkət xanım uşaqlara acıqlandı.

– Ağlınıza gələni dilinizə gətirməyin, belə şey ola bilməz. Hamı siyasətçi olub, hamı proqnoz verir. Siz də deyilənləri orda-burda danışmayın, camaat onsuz da bir himə bənddir.

– Ay ana, deyəsən sən fil qulağında yatmısan.

Şövkət qımışdı:

– Ay Əbülfəz, sən heç fil görmüsən?

– Niyə görməmişəm, ata bizi heyvanxanaya aparmışdı orada fil də vardı, bir də televizorda görmüşəm.

– Ay Əbülfəz, onda de görüm onun qulaqlarında mama necə yata bilər? – Ceyhun söhbətə qarışdı.

– Mən nə bilim e... hamı belə deyir də... – deyə Əbülfəz pərtliyini gizlətmək üçün gülə-gülə öz otağına getdi.

Şövkət xanım onun arxasınca səsləndi:

– Orada çox yubanma, ay söz güləşdirən balam, cəld ol bir az, əynini dəyişdir, nə lazımdırsa götür, nənəngilə gedirik. Siz də, ay Ceyhun, bir az tez yığışın, qızlara da kömək edin, geyinsinlər, gedirik.

Maşınla gəzmək uşaqlar üçün o qədər maraqlı idi ki, hara gedəcəklərinin, kimin yanına gedəcəklərinin onlar üçün o qədər də əhəmiyyəti yox idi, əsas məsələ bu idi ki, onlar valideynləri ilə bərabər idilər, maşınla gedəcəkdilər, yol boyu şəhərin dəyişən mənzərələrinə baxacaqdılar, oğlanlar rastlarına çıxan təzə maşınların modelini təyin etməyə çalışacaqdılar.

Uşaqlar iki dəqiqədən sonra təkrar dəhlizdə cəmləşdilər. Hamısı sözləşiblərmiş kimi bir ağızda qışqırdılar:

– Biz hazırıq...

Maşın kənd yoluna çatanda Ramiz sürəti azaltdı. Adam əlindən tərpənmək mümkün deyildi. Kəndin caamatı yola yığışmışdı. Hamının çöhrəsi tutqun, qaş-qabaqlı idi. Adamların əhval-ruhiyyəsi Şövkəti də, Ramizi də narahat etdi.

Şövkət xanımın bədənindən soyuq bir gizilti keçdi. Ehtiyatla ərinin üzünə baxıb, uşaqlar eşitməsin deyə pıçıltı ilə soruşdu:

– Avariya olub, maşın kimisə vurub?

Ramiz qayğı içində başını buladı.

– Bəs onda bu camaat niyə bura toplaşıb?

Handan-hana Ramiz dilləndi. Amma həyat yoldaşının sualına birbaşa cavab vermədi, daha çox sanki öz-özü ilə danışırmış kimi:

– Allah özü qorusun, Allah qorusun, – dedi.

Şövkət xanım Ramizin üzündə güclə sezilən tüklərin necə qabardığını, gözlərinin yaşardığını görüb həyəcanla arxa oturacağa sarı boylandı. Uşaqlar maraq və heyrətlə bu mənzərəni seyr edirdilər.

Ramiz ehtiyatla maşını izdehamın arasından çıxarıb anasıgilə gedən döngəyə sarı sürdü. Yol boyu hər kəs öz narahat düşüncələrinin qoynundan ayrıla bilmədi. Nədənsə uşaqların da səsi çıxmırdı.

Çox çətinliklə də olsa anasıgilə çatdılar. Burada da hamı narahat idi. Salamlaşmağa macal tapmadılar, evdəkilər nigarançılıqla bildirdilər ki, bir qədər əvvəl televiziya verilişləri qəfildən kəsildi. Deyirlər ki, televiziyanın enerji blokunu partladıblar. Bu hadisə camaatı təşvişə salmışdı. Cavabsız suallar, müxtəlif mülahizələr, bir-birindən qorxulu xəbərlər, adamları çaş-baş qoymuşdu. Doğru, dürüst məlumat almaq mümkün deyildi. Ölkənin yeganə informasiya mərkəzi – Azərbaycan Dövlət Televiziyası susdurulmuşdu. Yola toplaşan insanların səsi az qala evin içində eşidilirdi.

Ramiz çox narahat idi, içində oyalana-oyalana qalmışdı. Açıq danışıb bildiklərini evdəkilərə söyləmək istəmirdi. Neçə gün idi ki, iş yoldaşları, tanışları, dostları ilə Sovet ordusunun Bakıya gəlişi barədə danışırdılar, Xalq Cəbhəsinin gördüyü işləri müzakirə edirdilər, xalqın bu aksiyaya etirazının nə ilə nətilənəcəyi barədə fikir yürüdürdülər.

O illərdə hamı siyasətçi olmuşdu, hamı siyasətdən danışırdı, hamı öz fikrinin düzgünlüyünü sübuta yetirməyə çalışırdı. Siyasətçilər başlarını itirmişdilər. Respublikanın rəhbərliyi

vəziyyətdən çıxış yolu tapmaq əvəzinə, Moskvadan kömək umur, oradan gələn əmirləri müticəsinə yerinə yetirir, öz xalqının əl-qolunu bağlayıb düşmənin ayaqları altına atır, heç kəsə danışmağa, sözünü deməyə aman vermirdi.

Ramiz ayağa qalxdı, paltosunu çiyninə salıb heç kəsin üzünə baxmadan, özü-özünə komanda veririrmiş kimi qətiyyətlə dedi:

– Gedim görüm camaat orada neynəyir, bəlkə mən də kömək eləyə bildim. Siz narahat olmayın. Uşaqları da həyətə buraxmayın. Məndən də nigaran qalmayın, bir azdan qayıdacağam.

Anası nə isə demək istədi. Amma oğlunun qırımını görüb susdu. Şövkət ərinin arxasınca qapıya getdi. O min faiz əmin idi ki, bu dəqiqə heç nə Ramizi yolundan saxlamayacaq. Ona görə də ancaq bunları deyə bildi:

– Ay Ramiz, sən Allah, bir az ehtiyatlı ol, – dedi. Sonra da həm özünü inandırmaq, həm də ərinin narahatlığını bir qədər azaltmaq üçün.

– Vallah mənə elə gəlir ki, Sovet Ordusu, bizim Qızıl Ordu öz vətəndaşına əl qaldırmaz, çox güman ki, onlar bizə köməyə gəlir, bu erməni məsələsini həll etməyə gəlir... Dünyasında ola bilməz ki, Sovet Ordusu əli-yalın, silahsız insanlara güllə atsın.

Uşaqlar da analarının böyrünə sığınıb durmuşdular.

– Hər şey ola bilər, bu ermənipərəst Qorbaçovdan hər cür əclaflıq gözlənilir, – Ramiz əyilib bir-bir balalarını öpdü. Elə həsrətlə, elə məhəbbətlə, elə şəfqətlə öpdü ki, Şövkətin əti ürpəşdi, ürəyi titrədi. Qapını açıb həyətə çıxdı, dönüb arxasınca gələn Şövkətə baxdı:

– Qayıt evə, anamdan, uşaqlardan muğayat ol, mən bir azdan qayıdacağam, – deyib darvazadan çölə addımladı.

Şövkət xanım əli qoynunda evə qayıtdı. Qayınanası çox narahatlıqla:

– Səhər tezdən sizə gedərik. Burada yaman qarışıqlıqdır -

dedi.

– Yaxşı ana, sən narahat olma, yat. Dərmanlarını içmisənmi?

Sözünü tamamlamağa macal tapmamış işıqlar söndü. Küçədə səslər çoxaldı. Kəndin işığını da kəsdilər...

Qaranlıqda qaynanasının yorğun səsi eşidildi:

– Siz də yatın, uşaqların üstünü qalın elə soyuq dəyməsin.

Ananın yuxusu ərşə çəkilmişdi, gəlininə, nəvələrinə rahatlıq, xeyirli gecə arzulasa da özü narahat idi. Dünya görmüş bu xanım bu qış gecənin xeyir gətirməyəcəyini hiss eləyirdi. Ürəyi oğlunun, Ramizinin yanında idi.

...Ramiz şosse yoluna çatanda aləm bir-birinə qarışmışdı. Kənd qadınlarının qışqırığı eşidilirdi. Hərə öz övladını geri dönməyə çağırırdı.

Qarşısına çıxan ilk həmkəndlisi ilə salamlaşdı;

– Nə olub?

– Deyirlər Sovet Qoşunları bizim üstümüzə tanklarla gəlir!

Elə bu zaman uzaqdan tank səsi eşidildi.

– Gəlirlər, eşidirsiniz, dağılışın. Yoxsa qıracaqlar.

Aləm qarışmışdı. Ağız deyəni qulaq eşitmirdi.

Ramiz cavanlara müraciətlə:

– Tez olun, evlərinizə dağılışın, tez, tez.

Ramiz var səsilə bağırdığının fərqində deyildi.

Amma heç kəs yerindən tərpənmək istəmirdi, hamı ovsunlanmış kimi yerində quruyub qalmışdı. Baş verəcək hadisənin, gözlənilən faciənin ağırlığını heç kəs təsəvvür eləmirdi. Hamı hələ də bu ümiddə idi ki, Sovet əsgəri Sovet vətəndaşına atəş açmaz.

– Məryəm xala, oğlunun əlindən bərk tut, götür evə apar.

– Çox sağ ol, ay bala.

Beləcə Ramiz cavanları bir-bir öz valideynlərinə, qohumlarına ötürür, ərki çatanların qolundan tutub izdehamdan kənara

itələyirdi.

Tanklar doğrudan-doğruya sürətlə yaxınlaşırdı. Artıq ilk atəş səsi də eşidilmişdi. Tanklar yolu kəsmiş maşınları vəhşicəsinə əzib keçir, əliyalın insanlara atəş açırdılar. Qışqırıq, yaralıların iniltisi, qadınların fəryadı yeri-göyü lərzəyə gətirmişdi. Əsl müharibə meydanı idi. Adamlar çaşqınlıq içərisində özlərini kola-kosa vurur, qəfil güllələrdən qorunmağa çalışırdılar. Ramiz də camaatla bərabər qaçırdı. Birdən ayağı nəyəsə ilişdi. Dayandı, aşağı əyildi. Yıxılan cavan bir oğlan idi. Yaralının başını qaldırdı, nəbzini yoxladı. Cavan oğlan artıq keçinmişdi. Rus əsgərlərinin dəli bağırtısını az qala qulağının dibində eşidib, tələsik özünü yolun kənarındakı kolluğa vurdu. Əsgərlər 2-3 dəqiqədən sonra bayaq onun dayandığı yerə çatdılar. Ramizin gözləri qəzəbdən alışıb yanırdı, cəlladlar oğlanın meyitini süngü ilə deşik-deşik elədilər. Qana susamış əclaflar artıq ölmüş insandan da əl çəkmir, dəli bir hayqırtı ilə onun cansız bədənini təpikləyirdilər.

Bu faciəli səhnəyə ürəyi tab gətirməyən Ramiz nə vaxt yola çıxdığını, nə vaxt üzü tüklü, əli avtomatlı əsgərlərin üstünə atıldığını bilmədi. O yalın əlləri ilə pəvəzəng əsgərin boğazından yapışdı:

– Əclaflar, axı bizdən nə istəyirsiniz? Niyə bu günahsız xalqı qanına qəltan eləyirsiniz. Biz sizə neyləmişik ki...

5-6 yerdən açılan atəş ona sözünü tamamlamağa imkan vermədi.

Ramiz sonuncu dəfə doğulub boya-başa çatdığı evə baxdı, anasını, Şövkətini, balalarını göz önünə gətirdi. Qolları boşaldı və o çox sevdiyi Vətən torpağının özü boyda hissəsini düşməndən qoruyurmuş kimi bağrına basdı...

* * *

Nə Şövkət yatmışdı, nə də qaynanası. Qadınların ikisi də qorxu içərisində küçədən gələn səsləri dinləyirdilər.

Bayırda qışqırıq və atəş səsləri eşidiləndə Şövkət özünü hövlanak küçəyə atdı. Nə baş verdiyini anlamırdı. Küçədəki adamların hamısı ora-bura qaçışırdı. Onlardan biri həyət qapısının ağzında durub qalmış gəlini görüb qışqırdı:

– Ay bacı, orada niyə dayanmısan, tez ol, həyətə keç, tanklar kəndə girib, camaatı qırırlar, hara gəldi atəş açırlar, Allah eləməmiş səni vurarlar.

– Bəs Ramiz... Ramiz hanı? Siz Ramizi gördünüzmü? - Şövkət qaranlıqda gözdən itən kölgənin dalıca qışqırdı, - Ramiz hara getdi, Ramiz necə oldu?

Səsi qaranlıq kücənin kələ-kötür barılarına dəyib əks-səda verdi. Şövkət dəli kimi bağırır, küçədən keçənlərin hər birindən Ramizi soraqlayırdı. Onlardan biri dayandı, ərklə qadının qolundan tutub həyət qapısından içəri itələdi.

– Ay bacı, sən içəri gir, bunların vicdanı-insafı yoxdur, rastlarına çıxan hər qaraltını atəşə tuturlar. Ramizdən də narahat olma, harada olsa indi qayıdıb gələcək, sən get evə...

Şövkət həyətə keçdi. Ancaq orada qərar tuta bilmirdi. Təkrar darvazaya yaxınlaşdı. Elə bu zaman yaxın qohumlarından biri, Fərhad başılovlu:

– Şövkət xanım, Şövkət xanım, – deyə bərkdən çağıra-çağıra həyətə girdi.

Şövkəti qapının ağzında görən oğlan özünü itirdi, dili topuq çala-çala:

– Şövkət, bacım, tez ol, özünü çatdır xəstəxanaya, Ramiz səni çağırır.

– Nə, hara, niyə, nə olub Ramizə? – deyə Şövkət xanım kəkələdi.

– Tez ol, geyin, tez qaç xəstəxanaya, gecikmə... – Fərhad güllə kimi qapıdan çıxıb qaranlıqda gözdən itdi.

Şövkət xanım quruyub qalmışdı. Axı Ramizin xəstəxanada nə işi vardı, evdən getdiyi heç bir saat olmazdı. İndi bu xəstəxana nə məsələsi nə idi. Bəlkə kimsə yaralanıb onu aparıb xəstəxanaya.

Şövkət gecə paltarında olduğunun, corabsız ayaqlarına nazik ev sürütləməsi geyindiyinin heç fərqində deyildi. Nə soyuğu hiss eləyirdi, nə gecəyə doluşan düşmənin qorxusunu, nə də güllə səslərini... Eləcə qaranlıq küçə boyu xəstəxanaya sarı qaçırdı.

Xəstəxana qaynanasıgilin evindən çox uzaqda yerləşirdi. Oraya necə çatdığı yadına gəlmir.

Xəstəxananın həyəti adamla dolu idi. Şövkət xanım hara gedəcəyini bilmirdi. Hamı cərrahiyyə otağına doğru qaçırdı. Şövkət də təşvişlə ora yüyürdü. Otaq yaralılarla dolu idi. Bir neçə yaralı yerə uzadılmışdı. Gözü heç nəyi seçməyən Şövkət xanım Ramizi axtarırdı. Birdən tibb bacılarından biri onun qolunda tutdu:

– Şövkət, Ramiz qardaş o biri otaqdadır. Gəl mənimlə...

Tibb bacısı Şövkət xanımı qonşu palataya apardı. Ramizi çarpayıya uzatmışdılar. Rəngi ağ-appaq ağarmışdı. Palatadakı adamlar dərin bir sükut içində gözlərini yaralıya dikib durmuşdular. İçəridəkilərin baxışları altında utanıb-sıxılan Şövkət göz yaşlarından boğulsa da ərinə yaxın getməyə çəkinirdi. Azərbaycan xanımlarına xas olan həya-abır hissi ona imkan vermirdi ki, həyat yoldaşı ilə görüşməyə, onu bağrına basıb halını soruşmağa, onunla vidalaşmağa imkan vermirdi.

Çarpayıdakı yaralı güclə dodaqlarını aralayib:

– Şövkət, gəldin? – deyə soruşdu.

Qadının ayaqları sanki yerə yapışmışdı. Bütün bədəni daşa

dönmüşdü, nə irəli gedə bilirdi, nə də səsini çıxarmağa heyi vardı.

Arxadan kimsə:

– Ay qızım, niyə orada donub qalmısan, eşitmirsən, Ramiz səni çağırır. Yaxına gəl, tez ol...

Cavan gəlin ağır-ağır çarpayıya yaxınlaşdı. Kənd kişiləri otağı tərk etdilər, qapı örtüldü, Şövkət ərinin başını qucaqladı.

Ramizin səsi elə bil quyunun dibindən gəlirdi:

– Şövkət... gəlmisən... Şövkət, anam əmanəti, uşaqlar əmanəti, mən ölürəm.

Bayaqdan bəri göz yaşlarını içinə axıdan Şövkət hönkürtü ilə ərinə sarıldı:

– Yox, qoymaram səni ölməyə. Ramiz sən ölə bilməzsən, bəs mən sənsiz bu yükü necə qaldıracağam, sənsiz necə yaşayacağam? Mən də, balaların da, elə anan da sənsiz neyləyə billik. Biz sənsiz heç kimik, heç nəyik. Qurban olum sənə, ölmə, Ramiz, heç nəyin yoxdur sənin, bir balaca yaralanmısan, indi həkimlər, gülləni çıxararlar, hər şey qurtarar, bir-iki günə sağalarsan, qayıdarıq evimizə. Balaların da, anan da sənin yolunu gözləyir, bir az özünü toxtaq tut, əzizim, bu saat həkimlərlə də danışaram, lazım gəlsə səni mərkəzi xəstəxanaya aparарıq, sən sağalacaqsan, bizi başlı-başına qoyub gedə bilməzsən...

Ancaq Şövkətin xəbəri yox idi ki, həmin gecə Bakının irili-xırdalı bütün xəstəxanaları yaralılarla doludur. O bilmirdi ki, o gecə xalqın qanına susayan cəlladlar yaralılara yardım göstərməsinlər deyə hətta Təcili yardım maşınlarını belə atəşə tutublar, xəstəxanalara soxularaq hər şeyi alt-üst ediblər, işıqları söndürüblər, həkimləri xəstələrin köməyinə yetişməyə qoymayıblar.

– Məni bağışla Şövkət, uşaqları korluq çəkməyə qoyma,

mənimki də buracanmış...

Yaralı huşunu itirdi. Şövkət necə qışqırdısa qapının arxasında gözləyənlər tələsik içəri doluşdular:

– Kömək edin, onu Sabunçuya aparaq, o ölür, – Şövkət ağlaya-ağlaya ətrafdakılara yalvarırdı.

Özlərini yetirən həkimlər təəssüflə başlarını yellədilər. Nisbətən yaşlısı ehtiramla dilləndi:

– Artıq gecdir. Onun yarası çox ağırdır, biz bayaq gətiriləndə müayinə etmişik, heç cərrahiyyə əməliyyatının da xeyri olmayacaq,o əclafların atdığı qüllələr bədənin bir yerindən girib daxildəki bütün orqanları zədələyir. Nə ona əziyyət verin, nə özünüzə.Həm də yollarda bir müsibət var ki...Bu vurhavurda maşın da tapmayacaqsınız...

Şövkət həkimin dediklərinə məhəl qoymadı:

– Bəlkə, şəhərdə kömək edə bildilər. Ramizin ürəyi çox sağlamdır, ömründə bir dəfə də xəstələnməyib. Siz mənə kömək eləyin, bir maşın tapın...

Şövkətin qardaşları da gəlib çıxdılar. Ağır xəbərin yolu yüyrək olur. Onlar haradan xəbər tutmuşdular, necə öyrənmişdilər, soruşmağa nə vaxt vardı, nə də imkan...

Yolda qarşılaşacaqları dəhşətləri göz alıb yaralını maşına qoydular.

Bu kənddə Ramizi hamı tanıyırdı, hamı ona hörmətlə yanaşırdı. Onun çoxlarına yaxşılığı keçmişdi, cox adamın əlindən tutmuşdu, kömək eləmişdi. Hamı kədərlə xəstəxananın həyətindən sürətlə uzaqlaşan maşının arxasınca baxırdı...

Tanklar kəndin küçələrini gülləboran edib, yolu kəsənlərin nəfəsini kəsib qanlı meydandan, hadisə yerindən uzaqlaşmışdılar. Kim bilir neçə insanın həyatının son gecəsi olmuşdu bu gecə, neçə ocaq söndürülmüşdü, neçə evə vay düşmüşdü. İndi bu tanklar şəhərin mərkəzinə üz tutmuşdular. Ölüm maşını

mərkəzə doğrü irəliləyirdi.

Bir azdan Ramiz özünə gəldi, sürətlə gedən maşında onu bağrına basıb göz yaşları içərisində boğula-boğula Allaha yalvaran Şövkəti gördü, harada olduğunu, hara getdiklərini dərk etməsə də onun əllərindən tutaraq güclə pıçıldadı:

– Mənə soyuqdur Şövkət, üşüyürəm, üstümə yorğan ört.

Şövkət onun üstünə örtməyə heç nə tapmadı, titrəyən bədəni ilə ona sarıldı. Sanki gələn ölümün bum-buz nəfəsinin qarşısına öz çəlimsiz vücudu ilə sipər çəkmək istəyirdi.

Onları yolda bir neçə dəfə saxladılar. Hətta küçələrin birində yaralı bir rus əsgəri də gördülər. Hələ də nələrin baş verdiyini dərk etməyən maşındakılar rus əsgərləri tərəfindən güllələbarana tutulsalar da rus zabitinə kömək etmək istəyirdilər...Bir təhər yaralını maşına götürdülər.

– Nə olsun ki, rusdur, nə olsun ki, əlində silah bizim üstümüzə gəlib. Axı o da insandır, o da canlıdır, o da bir ananın övladı, bir evin yiyəsi, hansısa körpənin atasıdır. Onu küçədə qoyub getmək günahdır. Bəlkə o heç atəş də açmayıb, ya da ki, onu buna vadar ediblər, o da əmir quludur... – bunu da içində göynəyə-göynəyə qardaşı söylədi.

Bax, budur, bizi başqalarından fərqləndirən, budur bizim xalqın böyüklüyü, dahiliyi. Biz üstümüzə daşla gələni aşla qarşılayacaq qədər insaflıyıq, ürəkliyik...

Şəhərə yaxınlaşdıqca yollar daha təhlükəli olurdu. Ara-sıra tanklarla qarşılaşırdılar.

Küçələrdən birinə dönəndə qəfildən qabaqda gedən tanklarda biri onları gördü. Onlardan biri dayandı və qəzəblə maşının üstünə şığıdı:

Şövkət dəhşət içərisində qışqırdı:

– Maşını saxlayın, tank üstümüzə gəlir, bu dəqiqə bizi əzəcək.

O bərk-bərk Ramizi qucaqladı. Gözlərini yumub ölümü gözləməyə başladı.

Qardaşı sükanı sağa fırlayıb maşını yolun kənarına çəkdi. Ölüm-qalım anı artıq saniyələrlə ölçülürdü. Nə etməli idilər? Fikirləşməyə vaxt yox idi. Tank isə düz maşının üstünə gəlirdi.

Şövkət xanım öz ürəyini döyüntüsünü qulaqlarında eşidirdi. Üstü-başı qan içində idi. Ramizin zarıltısı getdikcə azalırdı. Onun baş verənlərin heç birindən xəbər yox idi. Ömrünün sanılı dəqiqələrinin qaldığını anlayirdı.

Görəsən indi Ramizin könlündən nələr keçir, nələr düşünür, nələr fikirləşirdi? Bəlkə də ömrünün ən bəxtiyar anlarını xatırlayırdı. Şövkət xanımla ilk görüşlərini, toylarını, uşaqlarının dünyaya gəldiyi anları, uşaqlarının məktəbə getdiyi günləri, cəmi bircə ay əvvəl təntənə ilə qeyd etdikləri 50 illik yubileyini xatırlayırdı.

Qəfil bir güllənin qurbanı olan, bu soyuq yanvar gecəsində ölümünə doğru gedən yaralı bir insanın qəlbində dolandır-dıqlarından heç kəsin xəbəri yox idi. Sevimli həyat yoldaşını ölümün əlindən qurtarmaq üçün həyatını təhlükə altına qoymaqdan çəkinməyən həyat yoldaşının da, hərdən dönüb yazıq-yazıq ona baxan və üzləşdiyi təhlükəli vəziyyətlərdən məharətlə çıxıb ancaq irəliyə can atan, hələ də onu xilas edəcəklərindən ümidini üzməyən qardaşının da...

Həyatla vidalaşan Ramiz daha Şövkət xanıma kömək etmək iqtidarında deyildi. Artıq o heç nə eşitmirdi, heç nə hiss etmirdi.

Yaxınlaşan tankla aralarında 5-6 metr məsafə qalanda maşına götürdükləri zabit yada düşdü. Şövkət xanımın qardaşı fikirləşmədən zabitin papağını əlinə alıb maşından düşdü, tələsik tankın qabağına qaçdı. Bu anda heç nə fikirləşmədən ölümünü gözünə alaraq, tankla üz-üzə durdu.

– Atəş açmayın, maşındakı sizin zabitdir, o yaralıdır,- deyə zabitin papağını yuxarı qaldırdı.

Tank kabinəsindəkilər nə isə fikirləşib tankı dayandırdılar. Bu möcüzə idi. Yəqin ki, ölümlə çarpışan Ramizə, bütün vücudunu ərinə sipər edən Şövkətə, onların yolunu gözləyən 4 günahsız, məsum körpəsinə, ağbirçək xəstə analarına, nəyin bahasına olursa olsun, Ramizi həkimə çatdırıb onu xilas etməyə çalışan qardaşı Rəşidə Allahın rəhmi gəldi.

Ulu Tanrıdan ümid heç vaxt kəsilməz. O həmişə oz bəndəsinə qarşı adildir, rəhmdildir, mərhəmətlidir- Şövkət ümidlə belə düşünür və getdikcə taqətdən düşən qolları ilə Ramizə sarılırdı...

Tank fırlanıb öz yoluna davam etdi. Dərindən nəfəs alan Rəşid bir anlıq elə bildi ki, ayaqları yoxdur, o eləcə uça-uça maşına yaxınlaşdı. Qapını açıb oturdu, bütün bədəni suyun içində idi. Qışın ayazında alnından üzü aşağı tər damcıldayırdı...

Yol ayrıcında 2 Təcili Yardım maşını dayanmışdı. Maşındakılar həyəcanla bu mənzərəni izləyirdilər. Heç kəs maşından düşməyə cəsarət eləmirdi, çünki azğınlaşmış əsgərlər heç kəsə aman vermədən atəş açırdılar, hətta tibb işçilərinə də.

Tank gedəndən, təhlükə sovuşandan sonra Təcili Yardım maşınının sürücüsü astaca siqnal verdi. Rəşid aşağı düşüb maşına sarı yüyürdü:

Bu da İlahinin ikinci möcüzəsi idi. Deməli Ulu Yaradanın Ramizə və onun sevdiklərinə rəhmi gəlib.

Rəşid Təcili Yardım maşınının qapısını açdı:

– Mənim maşınımda 2 yaralı var, vəziyyətləri çox ağırdır. Onları təcili xəstəxanaya çatdırmalıyıq.

Həkimlər hərəkətə gəldilər:

– Hərəsini bir maşına yerləşdirərik. Onlarla kim gedəcək, adam varmı getməyə?

– Var, birinin həyat yoldaşı, yəni mənim bacım maşıdadır, yalvarıram tez olun.

Həkimlər yaralıları maşınlara yerləşdirdilər. Onlardan biri Rəşidə dedi:

– Qardaş, yollarda vəziyyət onsuz da təhlükəlidir, keçib getmək belə mümkün deyil. Yaxşısı budur, siz maşınla şəhərə girməyəsiniz, bayaqkı vəzuyyətdən sizin qurtuluşunuz bir möcüzə idi. Maşını burada qoysanız növbəti tank onu əzib keçəcək. Siz qayıdın evə. Sonra, yəni səhər gələrsiz xəstəxanaya. Onsuz da...

Rəşid həkimə sözünü tamamlamağa imkan vermədi.

– Cəhənnəmə olsun maşın, mən də onunla gedəcəyəm.

Hələ şokda olan, bir möcüzə nəticəsində sağ qaldıqlarına inanmyan Şövkət xanım elə bil ki, qəflət yuxusundan ayıldı.

– Yox-yox, onsuz da Ramizi itirirəm, səni də itirə bilmərəm, qardaş, həkim düz deyir sən qayıt, mən Ramizlə gedəcəm.

– Bəs?

– Sus, Rəşid, balalarımı sənə tapşırıram, mənə bir şey olsa, onlar sənə əmanət.

Rəşid bacısının alnından öpdü.

– Yaxşı, bacı get, Allah amanında.

* * *

Xəstəxanaya 15 dəqiqəlik yol idi. Amma Sovet tankları Təcili Yardım maşınlarını Sabunçu körpüsündə haqladı. İnsanların qışqırığı tankların tırıltısına qarışmışdı. Körpüdən keçmək mümkün deyildi. Qayıtmalı oldular. Körpünün altından elektrik qatarları keçirdi. Maşınlar relslərin üstündən aşıb keçə bilməzdilər. Şövkət xanım Təcili Yardım maşınından düşüb dəmir yoluna yaxın qapıların birindən yolu soruşdu.

Sən demə burada da güclü atışma olubmuş. Yaralananlar və

ölənlər var idi. Əhali qorxusundan həyətlərinə çəkilmişdi. Şövkət xanımın səsinə bir neçə adam çıxdı.

– Maşın relslərin üstündən keçə bilməyəcək. Relslərin üstünə nə isə qoymaq lazımdır ki, maşın hərəkət etsin, – deyə adamların arasından yaşlı bir kişi irəli yeridi.

– Ay Allah, özün kömək ol. Axı, xəstəxanaya cəmi 200 metr qalıb. Belə də dərd olar. Qansızlar Təcili Yardım maşını belə buraxmırlar, bu müsibət harada görünüb, bunları ana doğmayıb, bunların ürəyində Allah xofu yoxdur- bunu da bir qadın dedi və ağlaya-ağlaya yaxın həyətlərdən birinə qaçdı.

Şövkət xanım göz yaşı içində ətrafdakılardan imdad istəyirdi. Kömək edə bilməyəcəklərini dərk edən insanlar başlarını aşağı əyib dayanmışdılar, elə bil gücsüz və çarəsiz qaldıqları üçün Şövkət xanıma baxmağa utanırdılar.

– Ay qardaş, bəs nə edək, bəlkə başqa bir yol var?

– Gərək kənd arası yolla mədənlərin arası ilə gedəsiniz.

– Çox uzaq olmazmı?

– Başqa çarəniz yoxdur.

Sürücü tərəddüdlə:

– Axı, mən yolu tanımıram-dedi.

– Biz sizə yolu göstərərik, – cavanlarda ikisi maşına mindi.

Ramiz hərdən özünə gəlir, əllərini Şövkət xanıma uzadır, pıçıltı ilə:

– Ölürəm, Şövkət, uşaqlarım... – deyirdi.

Şövkət xanımsa onun əllərini öpür:

– Döz, əzizim, lap az qalıb, bir azca da döz, indicə çatacağıq, cəmi beş dəqiqəlik yolumuz qalıb.

Şövkət xanım belə desə də bilirdi ki, bu 5 dəqiqəlik yol acı bağırsaq kimi uzandıqca uzanacaq, onlar bu mədən yolundan sağ-salamat keçib getmələri də Allahın lütfü olacaq. Amma o ümidini itirmək istəmirdi...

Yol kələ-kötür, narahat idi. Hər dəfə maşın nəyəsə toxunub silkələnəndə Ramiz zarıyırdı.

Ərinin bum-buz əllərini nəfəsi ilə isidən Şövkət elə hey pıçıldayırdı:

– Bir az da döz, qurban olum, bir azca da səbr elə, çatırıq.

O ərindən daha çox indi özünə təskinlik verirdi. Ona elə gəlirdi ki, Ramizi bu həyata bağlayan yeganə bağ onun əlləridir. Əgər o əllərini Ramizin əllərindən ayırsa ərini, balalarının atasını həmişəlik itirəcək.

* * *

Xəstəxanada həkimlər bir-birinə qarışmışdı. Cərrahiyyə şöbəsində yer çatışmadığından yaralıları döşəməyə düzmüşdülər. Əməliyyat aparmağa növbə çatmırdı.

Həkimlərdən biri amiranə səslə həkimlərə göstəriş verdi:

– Burada bir nəfər də ölməməlidir, əlimizdən gələni etməliyik ki, hamını əməliyyat edib yaşada bilək.

Ramizi düşürüb həkim müayinə etmək üçün çarpayıya uzatdılar. Həkim güllə yarasına baxanda başını tərpətdi.

– Çox qan itirib. Xanım sizdə yaralısınız?- həkim Şövkət xanımın qanlı üst-başına baxdı.

– Yox, yox yəqin yoldaşımın qanıdır. Həkim diqqətlə baxıb başını yana çevirdi. Şövkət xanım bilmirdi ki, Ramizin ciyərindən dəymiş güllə öz işini görmüşdü. Parçalanmış ciyər qan ilə qarışıq axırdı. Şövkət xanım fərqinə varmadan bu ciyər tikələrini də qan qarışıq üst-başına, hətta sifətinə çəkmişdi.

– Həkim tibb bacısını səslədi:

– Səidə, xanıma kömək et əl-üzünü yusun.

– Lazım deyil, tez yoldaşımı müayinə edin, – deyən Şövkət xanımın gözləri elə bil hədəqəsindən çıxmışdı.

Qan təzyiqini ölçən həkim - təzyiq demək olar ki, yoxdur. Sizə Allah kömək etsin. Çox qan itirib. Ürəyi sağlamdır, hətta qansız belə döyünür.

Ramiz son dəqiqələrini yaşayırdı. Ancaq dodaqları tərpənir, nəsə deyirdi. Tibb bacısı Səidə Ramizə yaxınlaşanda onu tanıdı. Onlar yaxın qohum idilər.

– Şövkət, Şövkət, – deyə pıçıldayan Ramizə tərəf gələn Səidə:

– Mən Şövkətəm, nə lazımdır?

– Su, su.

Səidə pambığı isladıb onun dodaqlarına sıxdı.

– İçin, – dedi.

Ramizin – Çox sağ ol, bacı. – pıçıltısını eşidən Səidə özünü saxlaya bilməyib ağladı.

Həkim: xəstə can üstə olsa da həyat yoldaşını tanıya bilir. Sən ona Şövkətəm dedikdə, o sənə bacı dedi. Bildi ki, sən o deyilsən. Şövkət hara getdi?

– Xanım çox üzülüb, biz onu o biri otağa keçirtdik ki, ərinin ölümünü görməsin.

Ramiz iri gözlərini bərəldib ətrafa baxırdı. Gözləri ilə kimi isə axtarırdı. Şövkət qapıda göründü. Ramiz ona diqqətlə baxanda gülümsədi. Gülüşü dodağında dondu. Artıq həyata əlvida demişdi. Şövkətin qışqırığı, fəryadı xəstəxananı başına götürmüşdü. Onu heç cürə sakitləşdirə bilmirdilər.

Həkim Şövkətə yaxınlaşıb onu sakitləşdirmək məqsədilə dedi:

– Biz cərrahiyyə əməliyyatı aparmalıyıq. Siz evə gedin. Səhər xəstəyə dəyməyə gələrsiz.

– Yox, doktor, mən onun yanında qalacağam.

– Olmaz. Həkim göz yaşlarını gizlədərək Şövkət xanımı sakitləşdirirdi.

– Evə gedin, yəqin ki, uşaqlarınız var. Onlar sizi gözləyir.

– Heç nə olmaz, mən qalacağam.

Bütün xəstəxana bu gəlinin fəryadına yığışmışdı.

Hamı ona təskinlik onu sakitləşdirmək istəyirdilər.

– Qızım, ağlamaqla bizə də mane olursan, yoldaşına qan lazımdır, gedib o biri binadan gətirmək lazımdır.

– Bu saat doktor, gedib gətirərəm. Şövkət çölə qaçdı. Ancaq hansı binaya getmək lazım olduğunu bilmirdi. Xəstəxananın qapısına tərəf qaçdı. Birdən bir Sovet tankının xəstəxananın həyətinə girdiyini gördü.

Həyətdə kimsə yox idi.

Bütün qapılar bağlanmışdı. İşıqlar da keçirildi. Şövkət xanımı bir qorxu, bir vahimə hissi bürüdü. Həyətdə gəzişən itlər də yoxa çıxmışdı. Yaxınlıqdakı binanın pəncərəsindən səs eşitdi:

– Bura gəlin, - tez, bura.

Səs gələn tərəfə döndü. Pəncərədən bir neçə əl ona tərəf uzandı. Əllərini uzatdı. Pəncərə hündürdə idi. Xəstəxananın həyətində fırlanan tank isə onlara tərəf dönürdü.

– Bir azca yuxarı qalxa bilsəydin.- deyə pəncərədən kimsə ona ürək-dirək verirdi. Şövkət barmaqlarının ucuna qədər qalxdı, axır ki, birtəhər onun əllərindən tutub, pəncərədən içəri sala bildilər. Huşunu itirən Şövkət xanımı naşatır ilə özünə gətirdilər. O, gözünü açan kimi ilk sözü bu oldu:

– Ramiz necə oldu? Əməliyyat qurtardımı?

– Hə, az qalıb, – deyə yenə onu aldatdılar.

Həkimlər bir-birinə baxıb gözlərini yayındırır, həqiqəti ona deməyə heç kəs cürət etmirdi.

– Ara sakitləşib evə gedə bilərsiniz. Qohumunuz dalınızca gəlib.

– Kimdir?

– Deyəsən, qaynınızdır.

Şövkət dəhlizə çıxdı. Qaynı hönkürtü ilə ağlayırdı.

– Sən niyə ağlayırsan? Ramiz əməliyyat olunur, həkimlər onu qurtaracaqlar.

Elə bil qaynı onun dediklərini eşitmirdi.

Şövkət qaynının daşa dönmüş üzünə baxa-baxa qışqırdı:

– Eşidirsən, indicə əməliyyat qurtaracaq, ramizi palataya gətirəcəklər, mən ona qan gətirməyə getmişdim, tank üstümə gəlirdi.

Şövkət havalı adamlar kimi rabitəsiz danışırdı:

- İndi Ramizi gətirəcəklər, bizi çağıracaqlar içəri...

Qaynı dillənmirdi Onun çiyinləri titrəyirdi.

Birdən elə bil ki, Şövkətin başına qaynar su tökdülər.O qaynının qarşısında durub gözlərini onun üzünə zillədi və israrla soruşdu:

– Mənə düzünü söylə, içəridən sənə nə isə dedilər, Ramizə nə isə olub?

Qaynı ağır-ağır dilləndi:

– Şövkət, gəl gedək evə, burada ağlama.

– Bəs Ramiz? Ramizi burada necə qoyub gedim mən?

– Şövkət... Şövkət daha Ramiz yoxdur... Mən səni aparmağa gəlmişəm.

– Necə yəni, yoxdur, mən onu öz əllərimlə bura gətirmişəm...

Şövkət dəli kimi həkimlərin üstünə yüyürdü:

– Öldümü, öldümü Ramiz? Niyə axı, niyə...o ölməli insan deyildi axı? Bəs Siz ona niyə kömək edə bilmədiniz, niyə?

Şövkət xanım başını divara çırpır, qışqırır, fəryad qoparır, od tutub alışan ürəyinin yanğısını heç cürə soyuda bilmirdi.

Bu fəryad o gecə şəhid olan 135 nəfərin fəryadı idi. Bu hayqırtı 135 şəhid anasının, şəhid bacısının fəryadı, ah-naləsi, harayı idi.

Qayını Hüseynağa Şövkət xanımı güc-bəla həyətə çıxarıb maşına oturtdu. Xəstəxananın həyəti adamla dolu idi. Hər kəs öz ölüsünü aparmağa, gecə itkin düşənini axtarmağa gəlmişdi.

Yola çıxdılar. Dan yeri yavaş-yavaş ağarırdı. Küçələr, meydanlar qan gölünə çevrilmişdi. Havadan da qan iyi gəlirdi. Yanğınsöndürən maşınlar asfaltı yuyur, əli avtomatlı hərbçilər kürəklə yerə pərçimlənmiş insan cəsədlərinin qalıqlarını yığıb maşınlara doldururdular.

Qaynı maşının sürətini lap azaltdı, yavaş-yavaş əsgərlərə yaxınlaşdılar. Əsgərlərdən biri yolun ortasında dayanıb əlini qaldırdı. Qaynı maşını saxladı.

Əsgərlər onların ikisini də maşından düşürüb divara söykədilər. Onlardan biri avtomatı qaynının sinəsinə söykəyib bağırdı:

– Səhərin gözü aşılmamış hara gedirsiniz? (yəqin ki, böyükləri idi).

Gözlərinin yaşı qurumuş Şövkət qəzəblə onlara tərəf döndü. Heç bir şey fikirləşmədən əlini avtomata tuşlayıb dedi:

– Siz Ramizimi bununlamı öldürdünüz? Niyə? Biz sizə neyləmişdik, axı? – dedi. Sonra isə özündən asılı olmayaraq:

– Siz faşistsiniz, qatilsiniz, cəlladsınız, – deyə qışqırdı.

Yenə də Allahın Şövkətə rəhmi gəldi. Artıq bu gün 2-ci dəfə idi ölümlə üz-üzə dursa da, ölümün soyuq nəfəsini hiss eləsə də, Tanrı onu qorudu, bu qorxulu kabusdan yaxa qurtara bildi.

Əsgər qəzəbindən gözləri alışıb yanan gəlindən qorxub bir addım geri çəkildi və yavaşca:

– Sizi öldürən, camaatı qıran biz deyildik. Onlar artıq şəhəri tərk eləyiblər. İndi isə tez olun, çıxın gedin burdan, tez gedin burdan, tez, tez...

Əmr verən deyəsən böyükləri idi. Əsgərlər yolu açdılar. Hüseynağa qardaşı arvadının qolundan tutub maşına mindirdi.

– Görmürsən bunların ağzından qan iyi gəlir, niyə arının yuvasına çöp uzadırsan, çəkib vuracaqlar, heç uf da deməyəcəklər...

– Cəhənnəmə vursunlar, onsuz da biz itirdiyimizi itirdik...

...Həyətə girəndə ilk əvvəl gözlərinə sataşan balaları oldu. Dördü də qapının ağzında durub analarına baxırdılar. Uşaqlar bir ağızdan soruşdular:

– Ana, bəs ata niyə gəlmədi, o necə oldu, hara getdi?

– O, yoxdur, ata yoxdur, o bir daha heç vaxt gəlməyəcək-dedi Şövkət və kökündən kəsilmiş ağac kimi yerə yıxıldı.

Gözlərini açanda balalarının dördünün də ağlayaraq ona sarıldığını görəndə özünü ələ aldı. Uşaqları bağrına basdı. Başa düşdü ki, Ramizsiz görəcəkləri günləri qabaqdadır.O bundan sonra bu dəhşətli həyatın bütün əzablarına dözməli, sınaqlarına tab gətirməli, onu gözləyən çətinliklərdən təkbaşına çıxış yolu tapmalı, balalarını böyütməli, onlar üçün, onların xatirinə yaşamalı, Ramizin ciyərparalarını yaşatmalıdır.

* * *

1990-cı ilin 20 Yanvar səhəri ağır və dəhşətli bir cinayətə şahidlik elədi. 19-dan 20-nə keçən gecə artıq dayaqları laxlayıb çökməkdə olan Sovet imperiyasının Bakını qan çanağına döndərmək planı başa çatdı. Lakin tanklar, avtomat silahlar qədim bir xalqı susdura, onun aşıbdaşan intiqam hissini öldürə bilmədi. Hər bir şəhid oğlumuz və qızımız on minlərlə soydaşının əvəzinə ölümə meydan oxudu, düşmən məğlub oldu, Azərbaycan xalqı öz şəhidləri ilə birgə qəhramanlıq tarixinin yeni səhifəsini yazdı. Matəm, göz yaşı ilə açılan səhər xalqımızın azadlıq və müstəqillik arzusunu üç rəngli bayrağı ilə bərabər başı üzərinə çəkdi....

...Səhər tezdən xəstəxanaya gedib, meyiti gətirməli idilər. Şövkət xanım hələ də özünə gəlməmişdi. Könüllə Ceyhun hər şeyi başa düşdüklərindən daha çox analarının qulluğunda dayanmışdılar. Onun əllərini ovuşdurur, dodağına suda islanmış pambıq sürtür, saçlarını sığallayır, hərdən yavaşca pıçıldayırdılar:

– Ana, anacan, aç gözlərini, sən də bizi qoyub getmə, aç gözlərini.

12-13 yaşlı bu körpələr artıq bilirdilər ki, bir daha atalarını görməyəcək, onun sinəsinə sığınmayacaqlar. Analarına da bir şey olsa, Allah eləməsin...

8-9 yaşlı Əbülfəzlə Ülkəri isə ovundurmaq mümkün deyildi..

– Ana, atamı istəyirəm, – deyə səhərə kimi ağlayan Əbülfəz səhərə yaxın yuxuya getmişdi. Şövkət xanımın isə ürəyi sözünə baxmırdı, tez-tez bayılırdı. Qonum-qonşuları tökülüşüb gəlmişdilər, eşidən-bilən onlara yığışmışdı. Qadınlar onun əyninə yapışmış qanlı paltarını soyundurmuş, dərisindəki qan ləkələrini təmizləmiş, əyninə qara rəngli paltar geyindirmiş, başına qara yaylıq bağlamışdılar.

Şəhərdə aləm bir-birinə dəymişdi. Bakıda fövqəladə vəziyyət elan olunmuşdu. Bütün avtobuslar, taksilər, şəxsi maşınlar saxlanılır, hər kəsin sənədi yoxlanırdı. Küçələrdə hərəkət məhdudlaşdırılmışdı, rəsmi idarələrdə çalışanların çoxuna buraxılış vərəqləri verilmişdi. Şəhərdə həyat demək olar ki, öz ahəngini, ritmini itirmişdi. Bakı müharibədən çıxmış döyüş meydanını xatırladırdı. Adamların üzü dərddən, yaşanan faciənin dəhşətindən bozarmışdı. Axşam güllələr açılan yerlərdə tez-tələsik yuyulub təmizlənmiş qan izlərinin əvəzinə qərənfillər od kimi közərirdi...

Elektrik qatarları işləmir, ali və orta məktəblərdə dərslər

keçirilmirdi, zavod və fabriklərin qapısı bağlanmışdı, ümumiyyətlə, sanki ətrafda həyat dayanmışdı. Azərbaycanın hər yerində matəm idi.

Azadlıq toxumu səpilən gecənin şəhidlər göyərdən müstəqillik meyvəsinin dadını hiss edən Azərbaycan xalqı əslində o gecə öz cəsarəti, mübarizə əzmi, qəhrəmanlığı və həmrəyliyi ilə düşmənə meydan oxumuşdu.

Ramizin məclisinə gələnlərin hərəsi bir söz danışırdı:

– Şəhərdə daha çox ölən olub.

– Hə, deyirlər Salyanski kazarmasının yanında ölənlərin sayı yüzü keçib.

– Vəhşilər, canilər balkona çıxanlara, yoldan keçənlərə, hətta uşaqlara belə güllə atıblar.

– Deyirlər hələ ölənlərin sayı dəqiqləşdirilməyib.

– Tədqiqatlar aparılır.

– Yadınızdadır, neçə gün əvvəl göydə vertolyotlar uçurdu. Sən demə, elə bu qaniçənləri Bakıya daşıyırmışlar.

– Deyirlər əliyalın, dinc əhalini qıranlar saqqallılar imiş. Xüsusi hazırlıqlı dəstələr, hətta içındə ermənilər də varmış.

– Azadlıq uğrunda mübarizə aparan xalqı qırıb, ölkəni viran edəndən sonra erməni quldurlarını gecə ikən aradan çıxarıblar. Səhər açılanda isə heç bir şey olmamış kimi yenə də adi qayda ilə Sovet əsgərlərini və tankları küçələrdə növbə çəkməyə çıxarıblar.

– Bakının bütün küçələri tankla doludur.

– Bakıda heç belə müsibət olmamışdı.

– Tarix dərsində müəllimimiz bizə 1905, 1918-20-ci illərdə erməni-müsəlman qırğınlarından danışardı. Biz əvvəllər müharibəni, davanı televizorda, kinoda görərdik. Sovet qoşunlarının xalqımızın başına gətirdiyi bu qanlı faciə isə heç yatsaydıq yuxumuza belə girməzdi. Kim inanardı ki, 70 il bir bayraq

altında yaşadıqların sənin millətinə belə divan tuta bilər, sənin xalqını qan dənizində boğar, vallah, ağıla sığışmayan işdir bu...

Söz-söhbət uzandıqca uzanır, fikirlər haçalanır, əsəblər gərilir, hisslər coşurdu. Bəlli olansa bu idi ki, Azərbaycan matəm içində idi. Elə kənd, elə qəsəbə yox idi ki, orada yas çadırları qurulmasın, şəhidlər üçün ehsan verilməsin. Qanlı Yanvar hadisəsindən sonra insanlar bir-biri ilə daha mehriban, daha qayğıkeş dolanırdılar, hamı bir-birininə köməyə tələsir, şəhid övladlar çiyinlərdə götürülür, şəhid ailələri ehtiramla yuxarı başa keçirilir, şəhid balalarına qayğı göstərilir, imkanlı-imkansız, yas mərasimi olan bütün ünvanlara yardım edilir, hamı təmənnasız bir-birinə əl uzadır, dayaq dururdu.

Şəhər demək olar ki, hərbçilərin əlində idi. Respublikanın bütün strukturları iflic vəziyyətindəydi. Xalqı qanına qəltan eləyənlər indi də onun yaralarını duzla yuyurdular, əhalinin səsini hər vəchlə boğmaq istəyirdilər.

Qanlı Yanvar qırğını xalqı qorxutmadı, əksinə onu daha da müdrikləşdirdi, mətnləşdirib birləşdirdi. Sovet tanklarına və əli silahlı hərbiçilərə məhəl qoymadan, ölümdən belə çəkinmədən şəhidlərimizə ehtiram əlaməti olaraq hər yerdə qara bayraqlar asmışdı xalq. Hər qara bayrağın başında qan rəngli qırmızı qərənfillər ağlayırdı. Yazıq qərənfillərin qismətinə o gecə matəm gülləri olmaq düşdü.

Şəhidlərimizin dəfni günü bütün küçələr qırmızı qərənfillərlə bəzənmişdi. Hər yerdə şamlar yandırılmışdı.bütün yollar Azadlıq meydanına aparırdı. Bütün Azərbaycan şəhidləri ilə vidalaşmaq üçün şəhərin baş meydanına axışırdı. İmperiya qadağalarına, rus əsgərlərinin dəyənəklərinə təpki göstərən xalq nəhayət ki, şəhid övladlaırını şəhərin ən uca zirvəsində – Dağüstü parkda dəfn eləməyə müəssər oldu. Həmin gün Azadlıq meydanından bir durna qatarı pərvazlandı. Şəhidlər

minlərlə insanın çiynində son mənzilə uğurlandı. Yol boyu sıralanmış qadınlar günahsız övladlara ağı deyir, uşaqlar əllərindəki çiçəkləri yollara səpir, qırmızı tabutlara qırmızı qərənfillər yağırdı. Səsucalanlardan ətrafa Kamil qaboyunun, Habil kamanının, Əhsən, Hacı tarının iniltisi yayılırdı. Azərbaycan matəm içərisindəydi. Şəhidlərə 40 gün yas saxlanılacaqdı...

* * *

Bir azca özünə gələn Şövkət xanım başa düşürdü ki, başına qara bağlayan təkcə o deyil... Ondan da ağır dərddə olanlar vardı. Əzizlərinin itkin xəbərini alanların gözü onun bunun üzündə idi, Allaha yalvarırdılar ki, heç olmasa meyiti tapılaydı, aparıb el adəti ilə dəfn eləyəydim, ya da ki, kaş o da çiyinlərdə gedən bu ərənlərin arasında olaydı.

Uşaqlar analarına sarılıb, ata-ata deyə-deyə ağlaşırdılar. Şövkət xanım öz faciəsini unutmuş kimi balalarını sakitləşdirməyə söz axtarırdı. Amma tapa bilmirdi. Elə bil sözlər, fikirlər qeybə çəkilmişdi, əvvəlki dilli-dilavər Şövkətin yerini süst, gözü yaşlı, başı qaralı, yüz sözdən birinə cavab verməyən bir qadın tutmuşdu. Bu qadın donuq nəzərlərlə ona başsağlığı verməyə gələnlərin üzünə maddım-maddım baxır, eləcə için-için yanırdı...

Bütün kənd, Ramizi tanıyan-tanımayan hər kəs onun ölümünə heyfslənir, "o ölməli oğul deyildi" deyirdilər. Hamının bircə təsəllisi vardı ki, "ellə gələn dərddir bu.Yaddan çıxarmayın bu dərdi ortadan qaldırmaq üçün hamılıqla birləşməliyik."

Həyətdə əl-ayaq eləyən, qohumlar dil-boğaza qoymur, bu müsibətdən danışırdılar. Bütün kənd ayaqda idi.

– Xəstəxanaya getmək lazımdır, – deyə qaynı gözlərinin yaşını silərək, Şövkətə müraciət etdi.

Kimsə yavaşca dilləndi:

– Hələ tezdir, getməyə tələsməyin, onsuz da saat 9 olmamış heç kəs bizə meyiti verməyəcək, o vaxtadək də yol-iz açılsa...

Ramizin anası Gülxanım xala ağlaya-ağlaya yanıqlı səslə oğlu Sabbara dedi:

– Ramizin məzarını qazmağa hələ tələsməyin. Qoyun balam bir gün bizdə qonaq qalsın. Qoy doyunca balamla söhbət eləyim. Dünən gələndə heç oturmadı, danışmağa macal tapmadıq.

– Sən narahat olma, ay ana, necə istəyirsən, elə də olsun, - Sabbar anası ilə razılaşdı.

* * *

Şövkət xanım hələ də Ramizin ölümünə inana bilmirdi. 15 il əvvəl bu evə gəlin kimi qədəm qoymuşdu. Hələ də qulaqlarından “Vağzalı”nın sədaları çəkilməmişdi. Yaddaşında həkk olunmuş o gözəl xatirələr, o qayğısız xoş günlər bu gün kino lenti kimi gözləri önündə canlanırdı. Necə də xoşbəxt, bəxtiyar anlar yaşamışdılar bu kiçik otaqda. 4 övladının körpəliyi də bu otaqda keçmişdi. Elə bil bir anlıq uşaq qığıltısı da eşitdi Şövkət xanım. Körpələrinin məsum, cingiltili gülüşü də bu otağın divarlarına hopmuşdu... Uşaqlarının balaca çarpayıları hələ də burada idi. O bu çarpayılarda balalarına layla çalıb yatırdar, şirin, xoş sözlərlə onları oyadar, geyindirər, yedirdib içirdər, onların hər addımına diqqət edərdi.

Şövkət xanım xəyal aləminə baş vuraraq həyatın şirinli, acılı xatirələrinin birdən-birə qov kimi uçub getdiyinə təəssüflənirdi. Bu zərif qadın, 15 ildən bəri ərinin qüvvətli çiyinlərinə

söykənərək özünü güclü sayan xanım indi ucsuz-bucaqsız səhrada qəfil gələn tufanla üz-üzə dayanmışdı. Ramiz daha onun səsini, harayını eşidən deyildi, çətin məqamında qolundan tutmayacaq, onu və balalarını qoruya bilməyəcəkdi. Şövkət üçün həyatın bir anlamı, mənası, ləzzəti qalmamışdı.

...Gözlərini pəncərəyə zilləsə də şüşənin o üzündə baş verənlərdən xəbəri yox idi, daha dəqiqi daha onu bu dünyada maraqlandıran, nəşələndirən heç nə yox idi elə bil... Həmişə səhərin açılmasına tələsən Şövkət xanım bu gün dan ulduzunu görəndə üşəndi. O indi anladı ki, ömründə ilk dəfədir, yeni günün başlamasını arzulamır. İlk dəfədir ki, tənha qalmaq, bu qaranlıq otaqda heç kəsin səsini eşitmək istəmirdi. Çünki, açılan yeni səhər, başlayan yeni gün onun üçün əbədi bir ayrılıq, həsrət, tənhalıq, məşəqqət gətiririrdi.

Əbədi ayrılığın ilk acısı, Ramizsiz başlayan ilk günün ağrısı dolmuşdu ürəyinə... Dünəndən bəri daşa dönmüşdü, daha ağlaya da bilmirdi, gözlərinin yaşı üzünə yox, daş kimi içinə yaşırdı indi.

Bir azdan Ramizi gətirəcəkdilər. Dünən öz ayağı ilə çıxdığı həyətə bu gün çiyinlər üstündə geri dönəcək.

“Torpağın üzü soyuqdur, o bütün ağrıları yavaş-yavaş unutdurur, insanları ovudur” – deyirlər. Bir də deyirlər ki, “ölənlə heç kəs ölmür”. Amma Şövkət Ramizdən sonra ölmək istəyirdi, bir vaxtlar xofla, qorxu ilə haqqında düşündüyü ölüm, indi onun üçün adiləşmişdi... İndi o ölmək, bu ayrılıq əzabından birdəfəlik qurtarmaq istəyirdi. Ancaq onunla ölüm arasında dayanan yeganə sədd övladları, gözlərini onun üzündən ayırmayan balaları idi...

...Dan yeri sökülürdü. Şövkət xanım yuxuya getmiş uşaqlarını oyatmamaq üçün yenə pəncərə önünə gəldi. Göyə, üfüqlərə baxdı. Elə bil göy hamilə qadın kimi ağrı çəkirdi. Yeni

bir gün, bir səhər üçün yeni günəş doğulacaqdı. Üfüqdə cəmləşmiş buludlar parçalanmış günəşin şüaları arasından göyə nazik zolaqlar salırdı. Buludlar bu zolaqları örtmək istəsə də bacarmırdı. Ana göyün ağrısı davam edirdi. Çəkdiyi əziyyəti-əzabı buludların hərəkəti ilə bildirirdi uca Göy. Nəhayət ki, Ana Göy azad oldu. Yenicə doğulmuş körpə günəş qırmızımtıl-sarı rənglə göyün üzünə doğru yavaş-yavaş hərəkət edərək, öz gücünü, öz gözəl rəngini alır, dünyanı öz nuruna boyamaq, hər yeri nur, işıq selinə qərq etmək istəyirdi. Yeni həyatın bu yeni başlanğıcı gecələrin qaranlığını qovub, onunla mübarizə aparan günəşin qələbə əzmini gerçəkləşdirirdi. İşıqla zülmətin, qaranlıqla aydınlığın bu əbədi mübarizəsi, güclü-qüvvətli səhər günəşinin başlanğıc yolu Şövkət xanımın ürəyini isindirdi, onun düşüncələrinin buz tutmuş qalın qatını əritdi, günlərdən bəri dolaşıq düşmüş fikirlərinin kələfini çözələməyə vadar etdi

Düzdür, həyat davam edirdi. O da bir təhər özünü toplayıb ayağa qalxmalı, Ramizin məclisini ona layiq yola verməli, balalarının xatirinə yaşamalı idi.

Görəsən bundan sonra onu və körpələrini nə gözləyirdi? Onun ailəsini taleyinə vurulan bu qəfil zərbədən, onun qolunu-qanadını sındıran bu nə amansız və vaxtsız ölümdən sonra açılan yeni səhər onlara nələr gətirəcəkdi?

...Ceyhunun hönkürtüsü onu xəyaldan ayırdı. Oğlu otağın ortasına uzadılmış cənazəni qucaqlayıb göynəyə-göynəyə ağlayırdı:

– Ata, ata, atamı istəyirəm, ata qalx ayağa, nə olar qalx, ata – heç kəs uşağı yerindən qaldıra bilmirdi, cənazədən ayrılmaq istəməyən uşaq balaca əlləri ilə atasının tabutundan yapışmışdı. Əbülfəz də qardaşına qoşulmuşdu, uşaqların səsi gecə güc-bəla ilə yatızdırqları qızları da oyandırmışdı. Balalarının dördü də səs-səsə verib ağlaşırdı, kənardan baxanların ürəyi parcalanır,

qadınlar ağı deyir, ağ xalatlı şəfqət bacısı bayılanlara dərman verir, halı xarab olanları güclə otaqdan çıxarırdı.

Şövkət key-key bu mənzərəni seyr edirdi. Kənardan baxanlara o daşdan yonulmuş heykəli xatırladırdı. Elə bil üstünə yaşıl örtük salınmış cənazə də, ağlaşan bu körpələr də ondan çox-çox uzaqlarda dumanlar içində getdikcə uzaqlaşır, yavaş-yavaş gözdən itirdi.

– Şövkətə kömək eləyin, tez olun, həkim çağırın... – eşitdiyi bu səs də sanki yeddi arşın quyunun dibindən gəlirdi.

...Ayılanda uşaqlarını görmədi. Ramizin anası ağır-ağır dilləndi:

– Qızım, sən belə eləyəndə gərək mən gedib özümü öldürəm. Bir az toxtaq ol, balalarına yazığın gəlsin. Bu müsibət bircə bizim başımıza gəlməyib ki...Bax, Ramizimi bütün el-oba ağlayır, bütün ölkə onlara yas saxlayır. Qalx ayağa, ərinin məclisinə özün rəhbərlik elə. Qapına el yığışıb gəlib, biz Ramizə layiq qonaqlarımızı qarşılamalıyıq, onun məclisini ona yaraşan səviyyədə keçirməliyik. Hələ ağlamağa da, dərd çəkməyə də vaxtımız olacaq. Dur, özünü topla!

Qaynanasının bu sözlərindən sonra Şövkət özünə gəldi. Ətrafdakıları birər-birər gözdən keçirdi, qara geyimli, gözüyaşlı qadınlar ona mərhəmətlə, şəfqətlə baxırdılar... Bacısı onun boynunu qucaqladı:

– Biz hamımız sənin yanındayıq, hamımız sənini ağrı-acını bölüşməyə gəlmişik bacım. Qaynanan düz deyir, indi bütün gözlər sənə dikilib, bu ailənin böyüyü, ağbirçəyi, yol göstərəni bundan belə sənsən...

Şövkət əyilmiş qəddini düzəltdi, oturduğu yerdən yavaş-yavaş qalxdı. Sanki daş heykəl hərəkətə gəldi. Bu daş heykəl oğlunun tabutu başında əyləşən pərişan anaya yaxınlaşdı, onun qarşısında diz çöküb üzünü onun əllərinə söykədi.

– Məni bağışla, ana, – dedi bu daş heykəl, – axı özümlə bacara bilmirəm.

Ana onun başını qaldırdı, gözlərinin içinə baxdı və qətiyyətlə:

– Sən mənim gəlinim, oğlumun yoldaşı, nəvələrimin anasısan, – dedi, – sən bacaracaqsan, sən bu dərdə dözəcəksən, sən balalarını böyüdəcəksən, sən Ramizimin yadigarlarını qoruyacaqsan. Bu sənin borcundur...

Şövkət o an dərk elədi ki, bu dünya görmüş, sinəsinə oğul dağı çəkilmiş qadın indi ondan daha güclü, daha qərarlı, daha dözümlüdür. O anladı ki, dağ vüqarını, qürurunu qorumağı bacaran, dərdə sinə gərməyi bacaran, balasının cənazəsi başında orun-korun yanan qaynanası haqlıdır. O belə bir ananın gəlini idi, elə bir kişinin həyat yoldaşı idi. Şövkət mübarizə dolu gələcək illəri şərəflə, qeyrətlə yaşamaq üçün özündə güc-qüvvə tapmalıdır. O, 4 körpəsinə arxa, dayaq olmalı, onları böyüdüb ərsəyə çatdırmalı idi. O, bu gücü, cəsarəti, dözümü hər səhər doğan günəşdən almalı idi. Qış günəşinin ılıq hərarəti onun sınıq qəlbinə yeni bir duyğu gətirmişdi, Şövkətin əyilən qəddini düzəltmişdi. O qaynanasının əllərindən öpüb ayağa qalxdı. Başını dik tutaraq ürəyində bir daha Allaha yalvardı ki, ona bu ağrılı-acılı əbədi ayrılıq səhərindən sonra gələcək günlərdə ona dözüm, övladlarını böyütmək üçün qüvvət versin.

* * *

Hələ belə hüzür görməmişdi kənd. Qadınların dediyi ağılar heç vaxt belə təsirli olmamışdı. Hələ qadınlarımız bu qədər göz yaşı axıtmamışdılar, analar bu qədər ağlamamış, yanıb yaxılmamışdılar.

Ramizin yas mərasimində minlərlə adam iştirak edirdi. Onu

kənd qəbirstanlığında dəfn etməyi qərara almışdılar. Bunu anası istəmişdi:

– Gözümün qabağında olsa yaxşıdır, yanında mənə də yer saxlayın, – demişdi.

– Qış günüdür, cənazəni saat 4-də götürsək yaxşıdır. Millət də çoxdur. – deyə kənd mollası ev yiyəsi ilə, Ramizin qardaşı Sabbarla məsləhətləşdi.

– Necə məsləhətdir. Bəlkə hələ bir az da tez , saat 4-ün yarısı canəzəni qal-dıraq, qəbristanlığa da xeyli yol var, - bunu da Ramizin o biri qardaşı, Hüseynağa dedi.

Təziyəyə gələnlərdən bəzisi mollaya yaxınlaşıb öz fikirini bildirirdi:

– Deyirlər dəfn mərasimində çıxış edənlər də olacaq. Gün də gödəkdir, hava axşam üstü lap souyur, nə qədər tez getsək, daha yaxşı olar.

Molla razılıqla başını tərpətdi. Sonra yenidən Sabbara müraciət elədi.

– Vaxtdır... Qoy içəridəkilər Ramizlə vidalaşsınlar. Cavanlara da deyin bir azdan cənazəni çıxarmağa hazırlaşsınlar...

Kimsə soruşdu:

– Bəs uşaqlar, oğlanları necə, onlar da gedəcəkmi qəbristanlığa, axı hələ kiçikdilər, indidən onlara bu dəhşəti yaşatmaq nəyə lazım...

– Getsələr yaxşıdır. Uşaq olsalar da qoy atalarının bir qəhrəman kimi həlak olduğunu və belə hörmət-izzətlə, təntənə ilə dəfn edildiyini yadda saxlasınlar.

Ümumi fikir bu oldu ki, Ceyhunla, Əbülfəzi də dəfn mərasiminə aparsınlar. Qadınlardan birinə uşaqları isti geyindirməyi tapşırdılar.

Cənazə həyət darvazasından çıxarılanda kənd ağsaqqalları qadınların qarşısına keçdi:

– Siz geri qayıdın, buracan bəsdir.

Sonra üzünü Şövkətə tutdu:

– Başını dik tut, qızım, qəddini şax saxla, bizim Ramiz balamız qəhrəmanlıqla həlak olub, o təkcə sizin ailənin, bizim kəndin deyil, bütün Azərbaycanın şəhid oğludur. Hər kişi də şəhid olmağı, Vətən yolunda ölməyi bacarmır, sən bunu heç vaxt unutma. Onun adı tarixə düşəcək, əbədiləşəcək. Ölüm haqdır. Bir gün yaranmışıqsa, bir gün də öləcəyik. Ancaq belə ölüm az adama nəsib olur. Allah rəhmət eləsin.

Üzündən hələ də gəlinlik təravəti silinməyən Şövkət xanım gənc qadına xas olan həya ilə başını qaldırmadan:

– Sağ olun, ölənləriniz rəhmət! – qəhərləndi, – deyəcəyi bütün sözlər boğazına tıxanıb qaldı.

– Ramizə də, onun kimi şəhid olmış yüzlərlə insana da bu gün bütün Azərbaycan ağlayır. Sən sil gözünün yaşını. Şəhidlər ölmürlər. Ramiz də ölməyib. O, daima sizinlə, bizimlə olacaq. Ruhu daima bu həyatda onu tanıyanlarla doğmaları, əzizləri ilə bərabər olacaq.

Ramiz getdi. Bu evdən, bu ailədən əbədi ayrıldı. Bu gedişin dönüşü, bu ayrılığın görüşü, bu həsrətin vüsalı heç vaxt olmayacaqdı... Həyat bir andaca boşaldı. Hər şeyin rəngi dəyişdi.

Könlünə qar düşsə, nə din, nə danış,
Mən bircə gecəlik qışın olacam.
Desələr əlacın uçmağa qalmış,
Əngin səmalarda quşun olacam.

Yuyum göz yaşımla, yaran sağalsın,
Başının üstündən duman dağılsın,
Qayıt gəl, yollardan gözüm yığılsın,
Nəmli kipriyində yaşın olacam.

Bax necə göynəyir yadım, yaddaşım,
Sən mənim əbədi çağlar göz yaşım,
Sənsən mübrizəm, sənsən savaşım,
Sən yatan torpaqda daşın olacam.

Hava yavaş-yavaş qaralırdı. Səhər doğan günəş yenə də şəfəqlərini yığırdı yer üzündən. Ramizin çiyinlər üstə qaldırılan cənazəsi də bu günün günəşi ilə bərabər güruba doğru gedirdi. Bircə fərqi vardı ki, Ana Göy sabah Günəş adlı daha bir övladını dünyaya gətirmək qüdrətindəydi. Ramiz isə...Ramiz bir daha geri qayıtmayacaqdı. Şövkət ağrı içində köksünü ötürüb, sonuncu dəfə evindən uzaqlaşan izdehamın arxasınca baxdı...

* * *

Köçdükləri təzə binanın həyətinə bir xeyli adam toplaşmışdı. Ramizgil burada 3 il idi ki, yaşayırdılar. Bu qısa müddət ərzində qonşuların hamısı ilə ünsiyyət qura bilmişdi, onlarla yaxın olmuşdu. Hər kəsin xeyrinə-şərinə birinci yetişmişdi. Hamı onu özünə yaxın, doğma sayırdı. İşi müşkülə düşən, çətinliyi olan Ramizi axtarırdı. O da heç kəsi naümid qaytarmazdı.

Həyətə yığılmış qonşulara Ramizin ölüm xəbərini Əli kişi çatdırdı:

– Gecə Ramizi də vurublar, o əclaflar. Əlləri quruyaydı ona güllə atanların. Deyirlər anasıgilə gedəndə vurublat.

Vay-vay, heyif səndən ay bala, heyif, sən ölməli oğul deyildin axı – Firuzə arvad göz yaşlarını saxlaya bilmədi.

Hamı heyrətlə içini çəkdi, hamı ürəkdən təəssüfləndi. Yaqub:

– Ay aman, bədbəxtliyə bax e... cavan adamıydı, bir ay əvvəl

50 yaşını qeyd elədik ki... 4 balası qaldı. O gəlin yazıq bu uşaqları necə böyüdəcək dünyanın bu qarışıq çağında, – deyə heyfsiləndi.

Elmira cavabında:

– Ay qardaş, Allah onların da rüzusunu yetirəcək. Yaxşı-pis hamısı böyüyəcək, heyif onun özündən, rəhmətlik yaxşı insan, mehriban qonşu idi.

Yaxşıxanım, Sürəyya, Zeybəxanım, Rəhilə qərara aldılar ki, dəfn mərasiminə getsinlər. Ancaq qəsəbədən kəndə getmək o qədər də asan məsələ deyildi, əvvəla yol uzaq idi, ikincisi maşın tapmaq müşkül məsələyə çevrilmişdi.

Sahib sözə qarışdı:

– Deyirlər yollar yenə bağlıdır, nə avtobus işləyir, nə də elektrik qatarları, maşınla gedənləri isə addımbaşı saxlayıb yoxlayır, heç kəsi qəsəbədən çıxmağa qoymurdular. Şəhərə gedənlərin də xüsusi buraxılış vərəqəsi var. Heç kəsi yola çıxmağa qoymurlar.

Salman maşından düşüb qadınlara tərəf gəldi.

– Biz kişilər getmək istəyirdik, yollar tanklarla doludur. Əli avtomatlı əsgərlər elə qəzəblə üstümüzə cumub bizi geri qaytardılar ki, daha onlarla mübahisə etməyin də mənasız olduğunu başa düşdük. Bütün yolları bağlayıblar.

– Axı, bunlar nə istəyirlər bizdən? Qoymurlar ölümüzün də dəfninə gedək.

– Gecikirik. Yəqin ki, cənazəni tezqaldıracaqlar. Necə eləyək, getməsək ayıbdır, Ramizin ruhundan ayıbdır. Sonra Şövkət bacının, uşaqların üzünə necə baxarıq. Nə olur, olsun, bir yol tapıb getməliyik.

Bu vaxt səmada uçan vertolyotun tırıltısı, qulaqbatırıcı səsi eşidildi.

– Kafirlər göydən də bizi güdürlər, – Gövhər xala qəzəblə

qışqırdı.

– Biz sizdən qorxmuruq.

Hamı elə bil danışıblarmış kimi əllərini vertalyota tərəf uzatdılar. Yumruqlar qəzəblə düyümləndi.

Kişilər təzədən yasa getmək üşün yollar aradılar. Hər kəs öz fikrini söylədi:

– Gəlin, elektrik qatarının yolu ilə piyada gedək.

– Qadınlar yorular, xeyli yoldur, elə uşaqlar da.

– Uşaqların orda nə işi var? – Firüzə xala təpindi.

Ağız-ağıza verən uşaqlar:

– Biz də gedəcəyik, – deyib bağrışdılar.

Zeybəxanıma israrla dedi:

– Mən Bəxtiyarı saxlaya bilmərəm, nəyin bahasına olursa olsun, o gedəcək...

Rəhilə dilləndi:

– Elə mənim Samirim də onun kimi. Necə deyim ki, getmə, ayıbdı axı.

Elmira da uşaqlarına baxdı:

– Heç Telmanı, Arifi demirsiniz. Görün necə inaddılar. Ay bala, uşaqlar yasa getməzlər.

– Sən nə danışırsan, ay ana, Ceyhunun atasını öldürüblər, bizim dostumuz atasını itirib, bəs indi biz onun yanında olmasaq, hansı günün dostlarıyıq ...

20 Yanvar faciəsindən sonra elə bil uşaqlar da böyümüşdülər, onlar bircə gecənin işində kişiləşmiş, ərgənləşmişdilər.

– Yaxşı, səs salmayın, yola çıxmaq vaxtıdır, hazırlaşın, xeyli yolumuz var. Kim getmək istəyirsə, arxamca gəlsin, – deyə Salman həyətdən çıxdı.

Həyətdə bir adam da qalmadı. Uşaqlı, qocalı, kişili, qadınlı – hamı yola düzəldi. Heç kəs danışmırdı. Relslərin üstü ilə gedirdilər. Hamı başını aşağı salıb dinməzcə yeriyirdi. Zeytun

bağlarına çatanda göydən vertalyot səsu eşidildi. Vertalyotdakı hərbçilər bir dəstə insanı görüb onları qorxutmaq üçün onların başı üzərində dövrə vurur, gah fırlana-fırlana aşağıya enir, sonra da qəfildən yuxarı qalxırdılar. Onlar camaata getmək imkanı vermirdilər, israrla onları geri qaytarmağa çalışırdılar. Aralarında kimsə:

– Ağacların arasına çəkilin, qaçın, alçaqlar uşaqları qıra bilərlər.

Camaat ağaclıqlara sarı çəkildi. Hərə bir ağacın altında gizləndi.

Dəstənin dağıldığını zənn edən vertalyot 10 dəqiqə fırlandıqdan sonra çəkilib getdi.

– Tez olun yola düşün. Bəlkə uşaqları qocaları dala qaytaraq.

– Onları tək qoya bilmərik. Hər an bir hadisə baş verə bilər.

– Yaxşı, tez olun, yolçu yolda gərək;

Dəstə yenidən yola düşdü...

* * *

Cənazə üçün fatihə verirdilər. Hamı sakit, dinməzcə qulaq asırdı. Evin qapısından kənd qəbristanlığına kimi yola qərənfillər döşənmişdi. Bütün kənd cavanları ayaq üstə idi. Elə bil hamı sözləşmişdi, hər kəs bacardığı işin qulpundan yapışmışdı. Ramizi qəbir evinə kimi öz çiynində gətirmişdi kənd camaatı.

Yer qayalıq idi, ona görə də qəbir qazımaq mümkün olmamışdı. Məsləhətləşib sərdabə tikmişdilər.

İzdeham dayandı. Cənazəni yerə qoydular. Təşkil olunmamış mitinq başladı. Çıxış edənlər xalqımızın başına gətirilən qanlı faciə ilə bağlı nifrətlərini dilə gətirdilər, Ramiz haqqında danışdılat, Tanrıdan ona rəhmət dilədilər.

Söz deyənlər çox oldu.

Ceyhunla Əbülfəz təzəcə tikilmiş sərdəbanın yanında durmuşdular. Yaş giləlᴀnmiş gözlərini atalarının cənazəsindən çəkmmirdilər. Sərdabanın qapısı hörülürdü. Diqqətlə baxan uşaqlar axırıncı daş hörüləndə:

– Yox, ata ölmə, getmə ata. Ay ata biz səni çox sevirik. Getmə ata, – deyə bir ağızdan qışqırdılar. Uşaqların bu fəryadı qəbrisitanlığı lərzəyə gətirdi. Yaşından asılı olmayaraq hamı hönkürtü ilə ağladı. Əmiləri uşaqları qucaqladı.

– Bu, el matəmidir. El gücü, sel gücüdür. Güclü olmaq lazımdır. Hələ bu xəmir çox su aparacaq... Bu, hamının ürəyindən keçən fikir idi...

Yanvarın 22-də Şəhidlər Xiyabanı yaradıldı. Bir vaxtlar Cənbərəkənd qəbristanlığı olmuş təpədə yeni qəbrlər sıralandı.

1905 və 1918-ci illərdə Erməni-müsəlman qırğınınında səhid olmuş insanların dəfn edildiyi bu qəbirstanlıq sonralar, yəni Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra dağıdılmış, yerində park salınmışdı.

Amma illər sonra tarix təkrar olunur, bir vaxtlar pərən-pərənə salınmış ruhlar yeni qurbanlarla bərabər öz əbədi məskənlərinə dönürdülər.

Əhali şəhərdə elan olunmuş komendat saatına, bütün qadağa və təhdidlərə rəğmən, heç nədən qorxmayaraq bu yüksəklikdə öz şəhidlərini dəfn etməyə nail olmuşdu. Nə şəhər küçələrinə şütüyən tankların vahiməsi, nə əli avtomatlı əsgərlərin hədə-qorxusu, nə respublika rəhbərliyinin mövqeyi camaatı öz inadından döndərə bilməmişdi. Fövqəladə vəziyyətə baxmayaraq bütün Azərbaycan ayağa qalxmışdı. Bütün xalq öz şəhidlərini son mənzilə yola salmağa gəlmişdi. Hətta bütün çətinliklərə baxmayaraq respublikanın rayonlarından da Bakıya gələnlərin sayı-hesabı yox idi. Qəbirləri qazanda sümüklər üzə çıxırdı. Şəhidlər şəhidlərə qovuşurdu.

* * *

İki gündən sonra Şövkət xanımgilin darvazası döyüldü. Gələnlər ehtiramla dedilər:

– Şövkət xanım, belə məsləhət görüblər ki, siz icazə verəsiniz, Ramizin cənazəsini Şəhidlər Xiyabanına aparıb orada dəfn edək.

Şövkət qaynanasına baxdı. Ana qətiyyətlə başını buladı.

Şəhərdən gələn nümayəndələr Şövkət xanımı da, Ramizin anasını da dilə tutub onları razı salmağa çalışırdılar. Onlar qadınları inandırmaq üçün dedilər ki, 20 Yanvar gecəsi həlak olanların demək olar ki, əksəriyyəti yeni yardılan Şəhidlər Xiyabanında dəfn olunub. Gələcəkdə ora ümumxalq ziyarətgahına çevriləcək.

Şövkət xanım onlara göstərilən diqqət və qayğı üçün minnətdarığını bildirdi, gələnlərə üzrxahlıq elədi:

– Bilirsiz, əvvəlcədən bilsəydik böyük məmnuniyyətlə Ramizin orada dəfn olunmasına razılıq verərdik. Ancaq təzədən onun ruhunu narahat edib ora köçürsək camaat nə deyər. Bu heç İslam dininə də uyğun dəyil. Dünən basdırdığımızı bu gün yenidən çıxara bilmərik axı... Bir də ki, nə fərqi var, ya Şəhidlər Xiyabanı, ya bura.. Şəhid şəhiddir, torpaq da ki, torpaq...Hər ikisi Vətənimizin bir parçasıdır. Bura bizə daha yaxındır, elə yanımızda olsa yaxşıdır, tez-tez ziyarətinə gedə biləcəyik. Həm də anası belə istəyir.. Ora da lazımdırsa, şəklini verim aparın.

Xeyli söhbətdən sonra gələnlər razılaşdılar. Ramizin şəklini götürüb getdilər.

* * *

Şəhidlərin ölmündən üç gün keçirdi... Şəhidlər Xiyabanında sıralanmış qəbrlərin sayı getdikcə artırdı. Xəstəxanalarda yaralı

yatanların bir qismini də zəhərli güllələrdən xilas eləmək mümkün olmamışdı. Rayonlara, ata ocağına aparılan şəhidlərin də bəzisini gətirib burada dəfn elyirdilər. İmperiya cəlladları 20 Yanvar faciəsinin qurbanlarının sayını dəqiqləşdirməyə belə imkan vermirdilər. Şəhərdə belə bir xəbər yayılmışdı ki, o geçə tankların tırtırları altında əzilənləri, süngü ilə dəlik-deşik edilib öldürülənləri gizlicə Nargin adasına aparıb orada dəfn ediblər. İtkin düşənlərin, o gecə səssiz-soraqsız yoxa çıxanların yolunu bu gün də gözləyənlər var. Hətta 2-3 gün sonra da şəhərdə və onun ətrafında öldürülənlər, yaralananlar var idi. Sumqayıta, işə gedən üç alimimizin də faciəli surətdə həlak olması xalqın qəzəbinə səbəb olmuşdu.

Tank onların maşınını yolda haqlamış, soyuqqanlıqla tankı onların oturduğu maşının üstünə sürmüş, "uf" belə demədən də onları ayaqlayıb keçmişdi. Bu şəhidlər də Xiyabanda dəfn edilmişdilər.

Yer-göy şəhidlərə, o əliyalın, insanlara, sinələrini odlu silahların, tankınların, süngülərin qarşısına sipər edib, qanları, canları bahasına ana torpağa azadlıq toxumu səpən cavanlara ağlayırdı:

Baxıram dünyanın bu gərdişinə,
Dəli bir ağlamaq keçir könlümdən.
Fələk rəvac verdi namərd işinə,
Dəli bir ağlamaq keçir könlümdən.

Torpaqda haqqı var axan qanın da,
Bir nərin qolları düşüb yanında.
Müqəddəs Şəhidlır Xiyabanında
Dəli bir ağlamaq keçir könlümdən.

Şəhidlərə həsr olunmuş seirlər, bayatılar, ağılar əl-əl gəzirdi.

Tanklar gəlir üstümüzə.
Bir dəstə gül verin bizə,

Biz tankların qarşısına,
Çiçəklərlə çıxanlarıq,
Zalımları, qansızları
Çiçəklərlə yıxanlarıq.

Tanklar gəlir üstümüzə,
Bir dəstə gül verin bizə.

Əlimizdə qərənfillər
Üz qoyarıq bu asfalta.
Çiçəklərə dəyib sınar
Başımıza enən balta.

Tanklar gəlir üstümüzə,
Bir dəstə gül verin bizə.

Tankın, topun qarşısından
Geri durmaq günahdır.
Ölmək ölüm demək deyil,
Əbədi yaşamaqdır...

Tanklar gəlir üstümüzə,
Bir dəstə gül verin bizə.
Tanklar gəlir üstümüzə,
Bir dəstə gül verin bizə.

Soyuq yanvar günlərindən biri idi. Sulu qar yağırdı. Şövkət xanım bir qucaq qərənfili bağrına basıb Ramizin görüşünə gedirdi. Bu gülləri Ramiz öz əlləri ilə əkib becərmişdi, gəlin səhər onları istixanadan dərib dəstə bağlamışdı.

İndi qadın ərinin əlinin hərarətini yaşadan bu dilsiz-ağızsız çiçəklərdən Ramizin ətrini alırdı. Onlarla danışırdı, onlardan Ramizi soruşurdu.

Evdən çıxanda heç kəsə heç nə deməmişdi. Təkbaşına, şösseyə, Ramizin vurulduğu yerə gəlmişdi.

Əlindəki gülləri yola, asfaltın üstünə duzüb için-için ağlayırdı.. Ötüb-keçən maşınların fit səsinə belə məhəl qoymadan, yağan sulu qarın üst-başını islatdığını belə fərqinə varmadan, yaş asfaltda diz çökmüşdü. Elə bu vaxt onun yanına gələn və sakitcə arxasında dayanıb ağlayan iki gənc qızın da onunla bərabər diz çökdüyünü gördü. Onlar da şəhid ailələrindən idi. Əzizləri burda vurulmuşdu.

Üç qadının yol üstündə, yaş asfalt üzərində diz çöküb qırmızı qərənfilləri nəvazişlə oxşayıb ağlayan görən sürücülər də maşını saxlayır, “Allah rəhmət eləsin” – deyib ehtiramla baş əyir, onların dərdinə şərik olduqlarını bildirir, kədərlərinə şərik olur, dərdlərini bölüşürdülər.

Şövkətin ətrafındakı qələbəliyin sayı getdikcə artırdı. Gəlin başını qaldırıb yan-yörəsinə baxdı. Başına toplaşan insanların çoxaldığını, hamısının da onunla bərabər ağladığını, qadınların yana-yana ağı dediklərini görəndə gəlbində qəribə bir yüngüllük, fərəh hiss elədi, elə bil dərdi bir azca azalmışdı. O indi tək deyildi, gör bir nə qədər dərd ortağı, qəm sirdaşı vardı onun. Qürurla güllərə baxdı, qərənfillər nəm asfalt üzərində alışıb yanırdılar elə bil...

Qərənfil- şəhid qanı,
Ağla, qərənfil, ağla.
Ağla, inlət meydanı,
Ağla, qərənfil, ağla.

Cavanlara qıydılar,
Tanklar altda qoydular.
Qanın içib doydular,
Ağla, qərənfil, ağla.

...Şövkətin yoxluğunu birinci hiss edən anası oldu. Sara xanım oğlu Yusiflə bərabər şosse yoluna tərəf qaçdı. Ora toplaşanların çoxluğu ananı çaşdırdı. Qadın həyəcan və nigarançılıqla:

- Allah, sən özün balamı qoru, – deyib yüyürdü.

Şövkəti bir dəstə adamın əhatəsində sağ-salamat görəndə zavallı ana bir qədər toxtadı. Yavaşca qızının qolundan tutdu.

– Yer soyuqdur, qalx ayağa, bala, qalx gedək, hava da soyuqdur, xəstələnərsən.

Şövkət sakitcə ayağa qalxdı, minnətdarlıq hissi ilə yan-yörəsinə toplaşan insanlara baxdı:

- Çox sağ olun, məni tək qoymadınız, hamınızın başı sağ olsun!

Anası ilə Yusif onun qoluna girdilər. Gəlinin bütün bədəni həyəcandan və soyuqdan tir-tir əsirdi. Yol boyu heç biri danışmadı. Hər kəs öz ürəyi ilə dərdləşirdi. Evə gəldilər. Uşaqlarının dördü də lal-dinməz dayanıb heyrətlə analarını süzürdülər. Üstü-başı su içində olan Şövkət balalarını qucaqladı...

Anası yenə onu danladı:

– Özünə yazığın gəlmir, heç olmasa bu körpələri düşün, ay

bala, – Sara xanım göz yaşlarını saxlaya bilmədi – Allah qorusun, sənin də başına bir iş gəlsə, bu uşaqlara kim baxacaq, ay qızım, bu dərd bir sənin başında deyil ki... Bir az səbirli ol, bir az özünü təmkinli apar, ölənlə indiyədək kim ölüb ki...

– Mən səbirliyəm, dözümlüyəm, anacan, bundan sonra da belə olacaq, bu gün mən dərk elədim ki, Ramiz millətinin, xalqının yolunda şəhid olub. Ana, kaş sən görəydin, tanımadığım insanlar mənə bu gün necə ehtiram göstərirlər, necə məhəbbətlə boynuma sarıldılar, necə ürəklə mənə təsəlli verdilər,"şəhidlər bizim də balamız, bizim də qardaşımızdı" – dedilər. Hətta yoldan keçən maşınları belə saxlayır, maşından düşənlər sükutla dayanıb baxır, bəzisi yaxınlaşıb başsağlığı verir, körpələr asfaltın üstünə çiçək səpirdilər. Camaatımızın bu hörməti, bu ehtiramı qarşısında baş əyirəm, ana, mən daha ağlamayacam...

...40 gün Azərbaycan əynindən matəm libasını soyunmadı. 40 gün başına qara bağlamış bayraqlarımız şəhid məzarlarının üstdə dalğalandı, 40 gün Şəhidlərin qəbri yalqız qalmadı, 40 gün Şəhidlər Xiyabanı müqəddəs Kəbə evi kimi öz zəvvarlarının göz yaşında və qərənfil yağışında yuyundu.

Azərbaycanın dörd bir yanından gələn insanlar şəhidlərin məzarı önündə diz çöküb, onların uyuduğu qutsal torpağı öpdü...

Ölkənin hər yerində, ən ucqar kəndlərdə belə şəhidlərin adına ehsan verildi, Quran oxundu. Bəlkə də yer kürəsinin heç bir yerində belə matəm olmamışdı.

...Enerji bloku partladılan Televiziyanın verilişləri xeyli azalmışdı, Xəbərlər proqramının rəsmi məlumatı şəhər komendatının senzurasından sonra efirə verilirdi. Qəzetlər bağlanmışdı. Ara-sıra gizlincə çap olunan vərəqələr əl-əl gəzirdi. Əhalinin yeganə informasiya mənbəyi Mirzə Xəzərin

apardığı “Azadlıq radiosu” idi ki, orada verilən xəbərlər də heç könül açan deyildi. Azərbaycan ziyalıları, xüsusilə də şair Bəxtiyar Vahabzadə tez-tez bu radio vasitəsi ilə dünya ictimayyətinə müraciət edir, nüfuzlu beynəlxalq təşkilatlardan Azərbaycan xalqına yardım istəyirdilər. Amma dünyanın qulağı kar, gözləri kor olmuşdu.

Hamının danışdığı, hər kəsin bir nöqtədə birləşdiyi əsas məsələ bu idi: xalqı bu vəziyyətdən çıxarmağa, bu bəladan qurtarmağa, azğınlaşmış ermənlərin qarşısını almağa qadir bir rəhbər lazımdır, millətin Atatürk əzmli, Atatürk qeyrətli bir liderə ehtiyacı var.

Bir müddətdən sonra bütün xalq neçə il əvvəl SSRİ-də ən yüksək dövlət postuna dəvət olunan, sonralar, yəni Qorbaçov hakimiyyətə gələndən sonra isə min bir bəhanə ilə vəzifəsindən - SSRİ Nazirlər Sovetinin birinci müavini postundan uzaqlaşdırılan Heydər Əliyevin Moskvadakı Azərbaycan səfirliyinə getməsi, orada jurnalistlər üçün keçirdiyi mətbuat konfransında Mixail Qorbaçovu onun xalqının başına gətirilən müsibətlərdə günahlandırması və Kommunist Partiyasının sıralarından nümayişkarənə şəkildə istefa etməsi böyük bir sensasiyaya səbəb oldu. Məşəqqət və zülümlə üz-üzə qalan xalq ümidini və gələcək nicatını bu insanın yenidən Azərbaycana qayıtmasında görürdü... Xalq ümidlə ayağa qalxıb mübarizəsini davam etdirdi...

* * *

...Bir-birini əvəz edən saatlar günlərə, günlər illərə çevrilirdi. Artıq saçlarına dən düşmüş Şövkət xanım hələ də qara yaylığı başından açmamışdı. Ramizsiz illər nə qədər ağır olsa da, artıq o da taleyinin bu qisməti ilə barışmış, el ağbirçəklərinin dediyi

kimi “belini bərk bağlayıb“ alın açıqlığı ilə, mətanət və dəyanətlə uşaqlarını böyüdürdü.

Xəyallar onu bəzən yaxın keçmişə, Ramizli günlərinə aparırdı, bəzən 20 Yanvar gecəsindən sonra dəyişən ömür yoluna, ağrılı-acılı saatları düşünürdü. Uşaqları evdə olmayanda həyəcan içində otaqları gəzirdi. Hər otaqdan Ramizin şəklini asmışdılar. Hər yerdən Ramiz boylanırdı. Hara dönürdüsə onunla göz-gözə gəlirdi. Artıq adət etmişdi, bir çətinliyi olanda otaqlardan birinə çəkilir, Ramizin rəsminin qarşısında dayanır, ərinin şəkli ilə danışır, ondan məsləhət alır, onunla dərdləşirdi. Beləcə keçib gedirdi ömür...

Şövkət xanım Novruz bayramında anadan olmuşdu. Ramizin sağlığında onlar həm ad gününü, həm bayramı xüsusi təmtəraqla keçirirdilər, axşam Ramiz evə dönəndə öz əlləri ilə becərdiyi çiçəklərin ən gözəlini seçib dəstə bağlayır, aldığı hədiyyə ilə birlikdə Şövkətə gətirərdi. Həmin gün dünyanın ən gözəl sözlərini də həyat yoldaşının ünvanına söyləyərdi Ramiz...

İllər quşdan qanad alıbmış kimi sürətlə uçub getmişdi. Artıq övladları da böyümüşdü. Ancaq balaları, bu ənənəni indi də yaşatmağa nail olmuşdular. İndi onlar analarına çiçək dəstələri gətirirdilər, hədiyyə alırdılar.

Şövkət xanım bu gün çox həyəcanlı görünürdü. Evdə qərar tuta bilmirdi. Bu gün qızına elçi gəlirdi. O bu axşam Ramizin yoxluğunu daha çox hiss edirdi. Kaş möcüzə baş verəydi, kaş indi qapı açılaydı, Ramiz gülə-gülə içəri girəydi, qollarını geniş açıb onu bağrına basaydı, “Gözümüz aydın, ay Şövkət, qızımız böyüyüb, ona elçi gəlirlər, xoşbəxt olsun, mənim balam“ - deyəcək. Qadın dönüb Ramizin divardan asılmış şəkilinə baxdı, ona elə gəldi ki, şəkil gülümsəyir...

Bu gün qızına elçi gəlirdi, yəqin bir-iki ildən sonra o da

kiminsə qapısını döyəcək, evinə gəlin gətirəcəkdi.

Nə tez gəlinlik yaşına çatdı bu qız? Elə bil ki, dünəndi, hər ikisi beşik başında dayanıb nəvazişlə, məhəbbətlə körpələrinə baxırdılar. Ramiz böyük qızı Könülü çox istəyirdi, həmişə ona “bacı“- deyirdi.

Şövkət yenə ürəyində özü-özü ilə danışırdı:

– Ramiz, mən sənsiz neyləyəcəm, bu boyda ağır işin öhdəsindən necə gələcəyəm? Qonaqlarımı sənin kimi qarşılayıb yola sala biləcəyəmmi? Sabah mütləq sənin görüşünə gələcəyəm, Ramiz, sənin məsləhətinə elə çox ehtiyacım var ki...

* * *

Qonaqlar artıq dağılışmışdı. Ana-bala otaqda yalqız qalmışdılar. Hər ikisinin gözü Ramizin divardan asılmış şəklinə zillənmişdi. Könül atasına diqqətlə baxırdı. Birdən o dilləndi:

– Ana, atanın şəklinə bax, elə bil ki, nə isə demək istəyir.

– Hə, qızım, sənə xeyir-dua vermək istəyir, sənə xoşbəxtlik arzulayır, atan.

– Yadındamı, ana, atam ölən ilin ilk Novruz bayramı, biz şəklinin qarşısına bayram şirniləri və bir nimçə aş qoyduq. Bir həftə orada qaldı. Biz sənə görə, sən isə bizə görə, ürəyimizi sındırmamaq üçün, o qablara dəymirdik. Bir dəfə isə biz sənin şəkillə danışdığını eşitdik. Sən atanın şəkilinə baxıb səssizcə ağlayır və pıçıltı ilə soruşurdun ki:

– Axı niyə yemirsən, Ramiz, bəlkə yağı azdır, bəlkə, soyuyub yeməklər?. Qoy aparım isidim sənin üçün... Yoxsa, küsmüsən bizdən?

Biz də gizlincə ağlayırdıq. Səhər tezdən Ülkərlə Əbülfəz şəkilin önündəki qabları götürdülər, əvəzinə isə bir qucaq qərənfil qoydular.

Bu illər ərzində Könül anasına dost, sirdaş, dərd otağı olmuşdu.

Ramizin böyük oğlu atasının arzuladığı peşənin dalınca gedə bilməmişdi, təhsil sistemindəki dəyişiklər, başlarına gələn müsibət onu lap erkən yaşlarından işləməyə, anasına, bacılarına sahib çıxmağa vadar etmişdi. Ceyhun Ticarət texnikumunda oxuyurdu, dərsdən sonra isə işə tələsirdi.. Könülün dərsləri çətinləşmişdi, ali məktəbi qurtarmağına cəmi bircə il qalırdı..

Şövkət xanım isə Ramizdən sonra anasını da itirdiyindən bərk sarsılmışdı, ona elə gəlirdi ki, bu gen düyada yapa yalqız qaldı. Uzun müddət özünə gələ bilmədi. Ona görə də işdən də çıxdı. İndi evin yeganə dayağı, çörək ağacı Ceyhun idi. Bütün ağır günlər, çətin anlar onları sındıra bilmədi. Pis-yaxşı bir təhər dolanırdılar. Şövkət xanımın həmişə qürurlu gəzirdi, qohumlarının heç birinə ağız açmadı. Lap sonda, qızının gəlin köçmə məsələsi gerşəkləşəndə illərdən bəri əl vurmadığı mücrü yadına düşdü. Ramizin bir vaxtlar minbir arzu-niyyətlə aldığı zinyət əşyaları dar günün yarağına çevrildi. Mürcüdəki qızıl əşyaları satıb Könülün cehizini düzəldəcəkdi...

– Ana, özünü çox xərcə salma. Sən varsan, bu bizə bəsdir. Cehiz məsələsinə görə də, narahat olma, yavaş-yavaş hər şey alacağıq.

– Atanızın arzuları ürəyində qaldı. Siz balaca olanda dünyanın bütün naz-nemətini evə daşıyardı. Həmişə sizin üçün ən yaxşı pal-paltarı seçib alardı, ən gözəl oyuncaqlar gətirərdi, deyərdi qoy balalarım heç nədən korluq çəkməsinlər, ürəyi bütöv böyüsünlər. İndi mən onun da yerinə sizdən heç nəyi əsirgəməyəcəm. Siz məni yaşadan qol-qanadımsınız. Bu əşyalar sizindir. Atanızdan sonra mənim qızıl taxdığımı görübsünüzmü, yox...

– Elə demə ana, sənin nə yaşın var ki, gözəl, qəşəng

anamızsan, tax o qızılları, oğlanlarının toyunda tax, qoy... - Könül sözünü tamamlaya bilmədi, anasının boynuna sarılıb hönkürdü.

Şövkət xanım Könülü bağrına basıb:

– Ağlama, qızım, bu gün sənin üçün əlamətdar bir gündür. Sənin həyatın bu gündən başlayır. Bəlkə də sənin hələ uşaq qəlbin bunu yetərincə dərk etmir. Ancaq bu belədir, mənim əziz balam. Başa düşürəm, zaman bizimlə çox amansız davrandı, böyük acılar yaşatdı. Ancaq bu bizim hamımızın tale sınağımızdır. Quracağın ailə sənin həyat məktəbindən aldığın dərsin bəhrəsi olmalıdır. Həyat bizim ailəyə qarşı çox qəddar olub. Bu əzablı yollar, sən yeni həyatda dözümlü, mübariz etməlidir, qızım. Həmişə hər şeyin yerini bil, insanları, baş verən olayları düzgün qiymətləndirməyi bacar, bax onda sən qalib ola bilərsən. Doğru-dürüst yaşamağı bacarsan, hər şeyin olacaq, Könülüm. Sən ağıllı qızsan, həyatın əsil mənasını başa düşürsən. Sən gözəl ailə qurmağı bacaracaqsan, əziz balam.

Başını anasının köksünə sıxmış Könül atasının şəklini seyr edir, gözlərindən axan yaş gözəl sifətinədə ağrılı cığırlar açırdı. Atası yenə gülümsəyirdi. Bu gülüşdə, məhəbbət də vardı, xeyir-dua da, şəfqət də, qayğı da, təsəlli də, ümid də...

Şövkət xanım növbəti həyat sınağından da üzüağ çıxdı, o biri balalarını da beləcə Ramizsiz, tək başına nişanlayıb, toylarını edəcəkdi.

Şosse yolunda – 20 il əvvəl Ramizin və onlarla digər şəhidin qanı tökülmüş yerdə sonralar rəmzi abidələr qoyulmuşdu. O kəndin şəhid oğullarının övladlarının, elə Şövkətgilin kiçik ailəsinin də gözəl bir ənənəsi var idi: Qızları gəlin köçəndə, oğlanları evlənəndə gəlinlik, bəylik libası geymiş cavanlar bu rəmzi abidə önünə, atalarının vurulduğu yerə əklil qoyur, onun və bütün şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad

edirdilər. Bu ənənə yəqin ki, nəsildən nəsilə keçəcək, şəhidlərin ruhuna ehtiram atalarınının simasında əbədi yaşayacaqdır...

...Şövkət xanımın nəvələri böyümüşdü. 5 nəfərlik ailə artıb çoxalaraq kiçik bir qəbiləyə çevrilmişdi.

Hər il yanvarın 20-də ata ocağına yığışan övladları artıq bu evə tək yox, öz ailələri ilə birlikdə gəlir, atalarının anım gününü qeyd edirdilər. Hərdən ailənin sonbeşikləri - balaca Ramiz və İsmayıl - nənəsinin qucaqlayır - nənə, bizə bir nağıl söylə, - deyirdilər, - Ramiz babanın nağılını.

Bu nağıl isə xəyallarda yaşayan bir ömür idi ki, artıq nağıla dönmüşdü. Acılı-şirinli xatirələrdən yoğrulmuş bir nağıla...

Hərdən nəvələri ilə Şəhidlər Xiyabanına gələn Şövkət xanım o illər haqqında kədər qarışıq sevinc hissi ilə danışardı.

Bu gün müstəqil Azərbaycanımız özünün ən gözəl günlərini yaşayır. Şəhidlərin qanı bahasına öz müstəqilliyini təkrar qazanmış Azərbaycan indi dünyanın ən qüdrətli, ən sivil, ən modern bir dövlətə çevrilməkdədir.

Şövkət xanım bütün bunlar barədə böyük bir qürur hissi ilə söz açırdı nəvələrinə. Körpələrin əlindən tutub iftixarla Şəhidlər Xiyabanını ziyarətə gələndə gündən-dünə gözəlləşən, sərhəd-lərini genişləndirən, küçə-küçə böyüyən Bakıya heykəlləşmiş, daşa dönmüş şəhidlərin gözləri ilə baxır. Azərbaycanın, Bakının ən uca zirvəsində, müqəddəs bur guşədə uyuyan Şəhidlərin məzarına baxaraq deyir:

– Rahat yatın, əzizlərim! Azərbaycanımızın bu günü və sabahı etibarlı əllərdədir. Sizin qanınız, canınız bahasına xalqımın əldə etdyi Müstəqillik əbədidir. Şəhidlər Xiyabanında, Sizinlə bir cərgədə uyuyan şair-telejurnalist Alı Mustafayev nə gözəl deyib:

Vətən mülkü məhvərindən tərpənir,
Bu qüdrətə baş əyməyə el gəlir.
Külli-bəşər bir ağızdan dillənir.
Ulu Hürmüz, bu ruhları oyandır!

Bu torpağın hər igidi bir ərdir,
Taleyimiz, qismətimiz hünərdir.
Yer üzünə günəş doğur, səhərdir,
Ulu Hürmüz, bu ruhları oyandır!

Odlar yurdu haqq yolundan dönməsin,
Qalxan bayraq qoy bir daha enməsin.
Azadlığın al günəşi sönməsin,
Ulu Hürmüz, bu ruhları oyandır!

Göy gurlayıb ildırımlar çaxanda
Səbrim dolub qılınc qından çıxanda,
Yağı düşmən yurduma kəc baxanda
Ulu Hürmüz, bu ruhları oyandır!

Dünyamıza müqəddəslik dayaqdı,
Haqqın dərgahında ölçülən haqdır!
Azərbaycan torpağında sınaqdır,
Ulu Hürmüz, bu ruhları oyandır!
Ulu Hürmüz, bu ruhları oyandır!

# HƏR YADDAŞ BİR XATİRƏ...

Ramiz ailəmizin sonbeşiyi idi.

Gülxanım ananın 6 evladı vardı: İki qızı, 4 oğlu... Qızları Əsmət və Minaxanım, oğlanları isə Sabbar, Hüseynağa, Əbülfəz və Cəbrayıl. Sonbeşiyimizi bütün kənd Ramiz çağırırdı

1939-cu il dekabr ayının 23-ü idi. Həmin gün Bakının küçə və meydanları çox sərt bir qış rüzgarına mübtəla olmuşdu. Xeyli qar yağmış, yollar buz bağlamışdı. Belə bir qarlı-çovğunlu gündə dünyaya gəlmişdi Cəbrayıl...Heç xəstəxanaya da apara bilməmişdilər anamızı, elə evdəcə gözünü açıb. Bu aləmdə ilk gördüyü, ana-atamız və qardaş-bacılarımız olmuşdu. Kəndin ağbirçəyi Zeynəb nənə atamız Hüseynxan kişiyə gözaydınlığı verəndə ondan çox biz sevinmişdik.

Ağır təbiətli, çox nadir hallarda gülən Hüseynxan kişi təbiətinə məxsus olaraq bir azca dodaqları qaçdı; əllərini göyə açdı

- Şükür sənə, Allahım, – dedi.

Yenicə doğulmuş körpəyə ad qoymaq böyük mübahisəyə səbəb oldu. Anası və böyük qardaşı Sabbar Ramiz deyib dursalar da, evin ağsaqqalının sözünü çevirməyə heç kəs cürət etmədi. Körpənin adını Cəbrayıl qoydular. Ancaq onu atasından başqa Cəbrayıl çağırmadı heş kəs. Hamı onu Ramiz kimi tanıdı, belə çağırdı. Bütün qohumlar, qonşular, kənd əhalisi üçün o Ramiz olaraq qaldı.

Ramizin uşaqlığı müharibə illərinə təsadüf etdi. O ağır illər Ramizin uşaq qəlbində həmişəlik həkk olunmuşdu. Evlənəndən sonra Ramiz evladlarına həmişə deyərdi:

- Yediyiniz çörəyin qədrini bilin. Mən uşaqlığımda jımığ da yemişəm., otla da qarnımı doyurmuşam. Özü də təkcə mən yox, bütün kənd camaatı yazın gəlməyini səbirsizliklə gözləyərdik. Çöldə-bayırda ot göyərəndə hamı sevinirdi ki, daha çoluğu-cocuğu acından ölməyəcək.

Ramiz küçədə yerə düşən bir tikə çörək görəndə əyilib onu götürər, öpüb gözlərinə sürtər, sonra da barının, divarın əl çatmayan hücrəsinə qoyardı ki, quşlar yesin.

Ramiz ilk təhsilini Bakının Yeni-Suraxanı qəsəbəsindəki 101 saylı məktəbdə almışdı. Əlaçı olmasa da dərslərini pis oxumurdu. O kiçik olanda atamız dünyasını dəyişdi. Biz, ona nisbətən böyük idik, ona görə də Ramizə qarşı çox səmimi, mehriban davranırdıq. Hər kəs ona qayğı göstərirdi, onu korluq çəkməyə qoymurduq.

– Biz hamımız ərköyün böyüyən Ramizin bütün dəcəlliklərinə, şıltaqlıqlarına göz yumaraq onu əzizləyərdik. Amma qardaşımız dəcəl olsa da, çox istiqanlı və səmimi bir uşaq idi. Həmişə özündən böyüklərə hörmətlə yanaşardı, özündən kiçikləri incitmirdi.

7-ci sinfi bitirəndən sonra Ramiz sənədlərini Şüvəlan qəsəbəsindəki Energetika texnikumuna verdi və axşam şöbəsinə daxil oldu.

Oxuya-oxuya da işləməyə başladı. İlk iş yeri neft mədənləri oldu, fəhlə kimi onu işə götürəndə Ramizin cəmi 13-14 yaşı vardı.

Texnikumu bitirəndən sonra isə hərbi xidmətə çağrıldı. Boyu və çəkisi hərbi xidmət üçün uyğun olmadığına baxmayaraq öz xahişi ilə könüllü olaraq əsgər getdi.

Hərbi xidmətini Belarusiya Respublikasında keçirdi.. Xidmət etdiyi illərdə sürücülük vəsiqəsi də almışdı...

Vətənə qayıdandan sonra müxtəlif yerlərdə işləyib. NQÇİ Qum adasında, dəyirmanda, Şüvəlan kanalizasiya şöbəsində. Elə axırıncı iş yeri də ora oldu.

Çoxlu dostları var idi, o qədər dostcanlı idi ki, bəzən adama elə gəlirdi ki, o özündən çox dostlarının qeydinə qalır, onların problemlərinin həllinə can atır. Bəlkə elə bu üzdən çox gec evlənmişdi Ramiz... 34 yaşınadək, subaylıq soltanlıqdır, – deyib evlənməkdən boyun qaçırırdı, hər dəfə bir bəhanə ilə aradan

çıxardı. O dövrün adət ənənələrinə görə bacılarımız daha çox cənfəşanlıq edər, sonbeşiyimizə qız bəyəndirməyə çalışardılar. Ona həm öz kəndimizdən, həm də qohumlar arasından neçə-neçə qız göstərmişdilər, ancaq o inadla susub dururdu.

Bir gün isə hamını təəcübləndirən bir hadisə baş verdi. Axşam işdən qayıdan Ramiz evlənmək istədiyini elan etdi. Gülxanım anamızın sevinci yerə-göyə sığmırdı. Nəhayət ki, onun sonbeşiyi də ev-ailə sahibi olacaqdı. Ramizin artıq 34 yaşı vardı. Evlənməli vaxtı bir qədər ötmüşdü də. Amma biz yenə sevinirdik, buzlar yavaş-yavaş əriyidirsə buna da şükür edirdik.

Bir-iki gündən sonra məlum oldu ki, Ramizin seçdiyi qız yaxşı tanıdıqları bir ailənin qızıdır. Bir payız axşamı onları nişanlandıq. Düz 1il sonra toyları oldu.

Şövkət xanım oxumuş müasir bir qız idi. Layihə İnstitntunda işləyirdi. Onun xahişi ilə nigahlarini Səadət sarayında qeyd etdik. Avqustun 25-də onların həyatında ən unudulmaz bir tarix oldu. Qeydiyyatdan sonra cavanlar 26-lar bağındakı abidə önünə əklil də qoydular. Baş verən bir hadisə isə Şövkət xanımı yaman narahat eləmişdi. Nigah qeydiyyatı üçün əvvəlcədən ərizə yazmağa gedərkən. Basin (indiki Füzuli) küçəsindən Səadət sarayına qədər hansı küçədən keçirlərsə, qarşılarına cənazə aparan bir dəstə çıxırmış.

Şövkət xanım nə qədər təkid etsə də Ramiz yolundan qalmaq istəmir

– Mən belə saçma-sapan şeylərə inanmıram-deyir- xoşbəxtliyi də, ömrü də verən Allahdır, narahat olmayın...

Onlar çox xoşbəxt idilər. Səadətlə dolu bir ömür yaşayırdılar. İlk övladlarının məhz onların nigah bağladıqları gün dünyaya gəlməsi də Şövkət xanımın ürəyində düyün bağlamış həmin hadisəni unutdurdu. Övladlarının adını Könül qoydular. Sonra Ceyhun anadan oldu. Onun gəlişi nəinki valideynlərini, bizim hamımızın sevincinə səbəb oldu. Çünki

bizim, yəni Ramizin qardaşlarının oğlan övladı yox idi.

- Ceyhun bizim nəsmlimizin davamçısıdır, - deyə bu uşağı hamı sevib əzizləyirdi.

Sonra Ülkər, daha sonra isə Əbülfəz doğuldu. Balaca Əbülfəzə Gülxanım ana dünyasını yenicə dəyişmiş oğlu Əbülfəzin adını qoymuşdu.

Böyük ailəmizin ən sevimli payı idi balaca Əbülfəz. Allah-taəla Ramizə gözəl övladlar bəxş etmişdi: 2 oğlan, 2 qız atası idi.

Ailəcanlı, uşaqcanlı olan Ramiz ailəsini hədsiz məhəbbətlə sevir, onların sağlam, xoşbəxt və firavan yaşamaları üçün əlindən gələni əsirgəmir, gecə-gündüz yorulmaq bilmədən çalışardı. Həyətlərində kiçik bir istilikxana düzəltmişdi. Orada qərənfil becərirdi. İşdən sonra boş vaxtlarını bu istilikxanada keçirərdi. Becərdiyi güllərə qulluq etməyi çox sevərdi.

Ramiz çox ciddi olduğu qədər də mülayim, səmimi bir insan idi. Gözlərində həmişə qəribə bir ifadə vardı. Bir uşaq. səmimiyyəti ilə baxırdı adama. Onun gözləri dup-duru, səmimi, saf, təmiz idi...

Qorxmaz, mərd, cəsur bir adam idi Ramiz. O bir sözü iki dəfə təkrar etməyi xoşlamazdı. Yaman əli açıq, səxavətli insan idi. Kasıblara əl tutmağı, çətinliyə düşənlərə məsləhət verməyi bacarardı.

Ailəmizin kiçiyi olmasına baxmyaraq hamımız onunla məsləhətləşərdik. Qəsəbə sakinləri də onu çox sevirdi. Nəinki Suraxanıda, Bakının bir çox kəndlərində belə, dostları, tanışları vardı.

Ramiz çox kövrək bir adam idi. Başqalarının dərdinə-sərinə etinasız qala bilməzdi. Bu insan hər şeyə vaxt tapardı. Uşaqlarını gəzməyə aparmağa da, dostları ilə görüşməyə də, qohum-qardaşa baş çəkməyə də. Onu hər yerdə görmək olardu. Toyda-düyündə, yasda və başqa mərasimlərdə həmişə birinci olardı. Necə ki, o qanlı yanvar gecəsində də birinciliyi əlindən vermədi.

Bir neçə il əvvəl onlar Hövsan qəsəbəsində yeni bir mənzil

almışdılar. O zaman baş verən hadisələrə etinasız qala bilməyən Ramiz Yeni Suraxanıya xəstə anamıza baş çəkməyə gələndə, yola toplaşıb Rus ordusunun qarşısına taxta barikadalar quran həmkəndlilərinin yanına tələsdi. Tələsdi ki, onları gələn ölüm təhlükəsindən qoruya bilsin. Amma özü bu vəhşilərin gülləsinə tuş gəldi..

Onun ölümü bizim ailə üçün bir faciə idi Onun gənc xanımını və dörd övladını heç nə ilə ovundura bilmədik. Əslində biz də onlarla bərabər uzun müddət Ramizin yoxluğuna dözə bilmirdik. **Bizim üçün** Ramizsiz həyat çətin təsəvvür edilir.

Lakin zaman öz hökmünü vermişdi. Qarlı-tufanlı soyuq bir gecədə doğulan Ramiz soyuq, lakin qarsız bir gecədə bizi tərk etdi.

Artıq o qanlı gecədən illər keçmışdir. Deyirlər ərlə arvadın torpağı bir yerdən götürülür. Ramizin özü kimi mərd, kişi qeyrətli Şövkət xanım dörd evladını boya-başa çatdırdı, onların haısını evləndirdi.

İndi Şövkətin 11 nəvəsi var, onların arasında ən çox sevdiyi balaca Ramizdir. Ramiz bizim hamımızın təsəllisi, əzizidir. Biz inanırıq ki, balaca Ramiz də öz babası kimi qorxmaz, mərd, cəsur, vətənpərvər bir igid olacaq.

Biz qardaşımız Ramizlə fəxr edirik. Onun yoxluğu bizə ağır bir dərd olsa da, təsəllimiz budur ki, o bizim xalqın azadlığı uğrunda şəhid olub., bütün nəslimizə, bütün kəndimizə, xalqımıza başucalığı gətirib..

ALLAH BÜTÜN ŞƏHİDLƏRƏ RƏHMƏT ELƏSİN.

***Ramizin (Cəbrayılın) qardaşları***
***Sabbar və Hüseynağa***
***Xanməmmədovlar***





* * *

O günlərə yenidən qayıtmaq, o anları təkrar xatırlamaq çox çətindir. Mənə elə gəlir ki, o Qanlı Yanvar faciəsindən 20 il deyil, lap 30 il, 60 il keçsə belə, o yara heç vaxt köhnəlməyəcək, həmişə sızıldayacaq, həmiçə bizi incidəcək. 1990-cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı ağır cinayət törədildi. Azərbaycanın ərazi bütövlüyünün pozulması cəhdlərinə etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədi ilə Bakıya və Respublikamızın bir neçə rayonuna qanunsuz olaraq qoşun hissələri yeridildi Görünməmiş qəddarlıqla həyata keçirilən cəza tədbirləri nəticəsində yüzlərlə günahsız insan yaralandı, qətlə yetirildi.

O gün Azərbaycan xalqı özünün ən şanlı səhifələrdən birini yaşadı. O gün həm də bizim üçün birlik günü oldu. O gecə müstəqillik üçün canından kecənlər gələcək nəsillər üçün əsl məktəbə çevrildi.

20 Yanvar Azərbaycan xalqının faciəsi idi. Eyni zamanda da xalqın birliyini, yekdilliyini təntənəsi, zülmə, ədalətsizliyə ümummilli etirazının başlanğıcı idi. Biz bu gün iftixarla deyirik ki, Azərbaycanın azadlığı 20 Yanvar faciəsində tökülən şəhid qanı ilə yazıldı.

O qanlı gecədə Azərbaycan xalqı bir daha sübut etdi ki azadlığı uğrunda ölümə belə hazırdır. Mənim yaxşı tanıdığım Ramiz də bu şəhidlərdən biri idi.

Mən Ramizi (Cəbrayılı) lap çoxdan tanıyırdım, biz bir qəsəbənin sakini, bir küçənin qonşuları idik. O çox cəsur, mərd insan idi. Qəsəbədə böyükdən-kiçiyə hamı onu tanıyırdı. Ramız xeyirxah, əliaçıq, səxavətli adam idi. Qapısına diləyə gələni əliboş, naümid qaytarmazdı. Bəzən imkansız insanlara gizlicə əl tutardı, kimininsə oğlunun və ya qızının toy xərcini ödəyərdi,

amma dostlarına tapşırardı ki, bu barədə keş kəsə, nə toy sahibinə, nə də qonum-qomşuya bir söz deyin. Hərdən kiminsə evinə gedəndə hiss eləyirdi ki, o adamın sıxıntısı var, nəyəsə ehtiyac duyur, ehmalca çay içdiyi süfrənin bir qulağını qaldırır, imkanı çatan qədər ora pul qoyur, amma heç kəsə heç nə demirdi. O fikirləşirdi ki, qarşısındakı insanı alçaltmaq dünyanın ən günah işidir. Ramiz çox sədaqətli dost idi. Onunla oturub-duranlar bilirdilər ki, Ramiz dostu üçün, elinin-obasının, kəndinin-kəsəyinin qeyrəti üçün hər cür fədakarlığa hazırdır. Ramiz (əsl adı Cəbrayıl olsa da, bütün kənd onu Ramiz kimi tanıyırdı) Allah adamı idi, heç kəsin haqqını yeməzdi, halal haram bilən idi, heç vaxt haqqı nahaqın ayağına verməzdi.

Yeni Suraxanının ilk şəhidi olan Ramizlə biz fəxr edirik O yaxşı övlad, yaxşı dost, yaxşı ata və yaxşı həyat yoldaşı idi.

Şəhidlərimizin əziz xatirəsini uca tutaraq onların keçdikləri o ağır anları qələmə almaqla Ramizin ömür-gün yoldaşı Şövkət xanım təqdirə layiq bir iş görür. Yəqin ki bu kitab təkcə şəhid ailələrinin yox, hər bir oxucunun rəğbətini qazanacaq.

Rayonun ictimai-siyası həyatında öz fəaliyyəti ilə xüsusi uiə seçilən Şövkət xanıma uğurlar arzulayıram.

***Arif Babayev,***
***Suraxanı Maşınqayırma zavodunun***
***direktoru, Şöhrət Ordenli***

* * *

Xalqımızın tarixinə qanla yazılmış 20 Yanvar faciəsindən bizi 20 illik bir zaman ayırır. O qanlı gecə insan fəryadı, tank tırtıllarının hayqırtısı, güllə səsləri ilə yaddaşımıza əbədi həkk olunub. Düz 20 ildir ki, arxasız ərlərə, talesiz nərlərə, günahsız qanlara, bədənsiz qollara ağlayırıq.

Biz Yeni Suraxanı sakinləri qara yanvar gecəsini heç vaxt unutmayacağıq Çünki o gecənin bilavasitə iştirakçıları və şahidləri arasında bizim qəsəbənin də sakinləri vardı. Tankların qəsəbəyə girməsi sakinləri qorxuya salsa da, onları sarsıtmamışdı. Aeroport şossesində şəhid olanlar çox idi Onların arasında qəsəbə sakini Ramiz (əsil adı Cəbrayıl idi, ancaq hamı onu Ramiz deyə çağırırdı) də vardı. Ramiz ailənin sonbeşiyi olduğundan hamı onun xətrini istəyirdi

Cəmi on beş il əvvəl evlənmişdi Ramiz, dörd övladı vardı. Həyat yoldaşı Şövkət xanım ali təhsilli olsa da, balalarını layiqli vətəndaş kimi böyütmək üçün işləmir, onların tərbiyəsi ilə məşğul olurdu. Balaca istilikxanaları vardı, orada qərənfil becərirdilər Ramiz vaxtının çoxunu da elə burada keçirirdi. Əsas işindən qayıtdıqdan sonra ta gecədən xeyli keçənəcən gül-çiçəyin nazını çəkər, onlara qulluq etməkdən usanmazdı. Əvvəllər anası, qardaşları ilə bərabər yaşayırdılar. Sonra ailə böyüdü, uşaqların sayı artıdı və Ramiz də çalışdığı yerdə ev növbəsində olduğundan onlara Hövsan qəsəbəsində yeni mənzil verdilər. Təzə evə daşındıqları üç ilə yaxın idi. Görünür, doğurdan da yazıya pozu yoxmuş, əgər o gecə Ramizgil Yeni Suraxanıya, xəstə anasına baş çəkməyə gəlməsəydilər, yəqin ki, heç o qəfil güllə də yüzlərlə insanın arasından axtarıb onu tapmayacaqdı. Amma yaxşı deyirlər ki, qədərdən-qismətdən qaçmaq mümkün deyilmiş.

20 Yanvarın rəmzi qırmızı qərənfillərdir. O kədərli gündə şəhidlərimizi minlərlə qərənfillə yola saldıq, ağı, mərsiyə, bayatı ilə uğurladıq son mənzilə. Ramizin becərdiyi qərənfillər də həm onun, həm də digər şəhidlərimizin məzarına qismət oldu. Ramizin ölümü hamımızı yandırdı.

Amma bir təsəllimiz var ki, Ramiz kimi igidlər bizim xalqın azadlığı uğrunda şəhid olub. Şəhidlərunsə məqamı, mərtəbəsi bilirsiniz ki, Allahın yanında çox ucadır. Bir təsəllimiz də budur ki, Ramizin işığı bu gün də yanır, onun ömür-gün yoldaşı Şövkət xanım kişi kimi bu ailənin başında durdu, uşaqlarına korluq çəkdirmədi, onları böyütdü, oxutdu, hamısını yerbəyer etdi. Üzü ağ olsun, o əsl azərbaycan xanımıdır, mən ona möhkəm can sağlığı, uzun ömür arzulayıram.

***Hacıxanım Zərifə Məmmədova.***
***Ramizin qohumu***

* * *

Deyir birindən soruşurlar ki, qardaşın necə adamdır? O da qayıdıb deyir ki, bilmirəm, yol yoldaşı olmamışam.

Bu məsəldə çox böyük məna, hikmət var. Doğrudan da bizim həyatda tanıdığımız hər hansı bir şəxs, istər qohum olsun, istərsə də dost, yoldaş öz daxili aləmini məhz evindən, kəndindən, şəhərindən, ölkəsindən uzaqlarda daha bariz şəkildə ortaya qoyur, müsbət və ya mənfi xüsusiyyətlərini daha tez biruzə verir.

Mən də uzun müddət vətəndən kənarda yaşamışam Bir müddət Ramiz də (Cəbrayıl) mənimlə bir yerdə işləməli oldu, Ramiz əslində, ilk baxışdan başqalarından heç nə ilə fərqlənməyən adi bir insan idi, eyni zamanda onun başqalarından seçilən bəzi cəhətləri vardı.

Ramiz dostluqda sədaqətli idi, vətənini, millətini çox sevirdi. Əsl türk oğlu türk idi. Haqsızlıqla barışmaz, xəyanəti bağışlamaz, yalanı sevməz, verdiyi sözdən geri çəkilməzdi.

Ramizlə həmyaşıd olsaq da, bir qəsəbədə yaşasaq da onunla yaxınlığım və dostluğum Qazaxstan Respublikasında daha da möhkəmləndi. 60-cı illərdə Manqışlaq vilayətində neft istehsalına başlananda, Azərbaycandan, xüsusilə də Bakıdan oraya kömək üçün peşəkar neftçilər göndərmişdilər. Biz də onların arasında idik. Manqışlağa keçmiş Sovetlər İttifaqında hər yerindən nümayəndələr dəvət olunmuşdu.

O illərdə də bəzən milli zəmində toqquşmaral baş verirdi. Rusların, şovinist rus siyasətçilərinin məqsədyönümlü ayrıseçkililiyini biz müsəlmanlar hər addımda hiss edirdik. Bizim indi-indi yaradıb fəzliyyətini genişləndirməyə çalışdığımız diaspora hərakatının hələ o vaxt nə olduğunu bilmədiyimiz bir dövrdə Ramiz belə bir cəmiyyət yaratmışdı.

Biz onunla bir otaqda yaşayırdıq. Ramiz Manqışlaqda işləyən bütün azərbaycanlıların qayğısına qalırdı. Yeni

işləməyə gələnlərin işlə, yaşayış yeri ilə təmin olunmasına kömək edirdi, onların bir sıra sosial problemlərinin həllinə yardım etməyə çalışırdı.

Az sonra o Azərbaycan icmasının liderinı çevrildi. Dara düşən hər kəs ilk növbədə onu axtarıb tapır, kömək üçün ona müraciət edirdilər. Ramiz də heç kəsdən köməyini əsirgəmirdi. Onun bir sözü vardı: "Sən Azərbaycanda öz hərəkətinə görə özün cavabdehsən, burda isə hər kəsin hərəkəti bizim Vətənin adına yazılır Burda xoşumuza gəlməyən, hətta nifrət etdiyimiz soydaşımıza belə hörmətlə yanaşmalıyıq. Azərbaycanın adına xətər gətirən hec bir hərəkətə yol verməməliyik. Qoy özgə millətdən olanlar da bizim cəmiyyətimizin möhkəmliyinə, birliyinə, səmimiyyətinə qibtə etsinlər. Əgər biz bu hımrəyliyə nail ola bilsək, bizə hörmətlə yanaşacaqlar, heç kəsin bizə yuxarıdan aşağı baxmağa gücü çatmayacaq. Biz təklənsək, tez sınarıq!"

...Bir dəfə Moskvadan Manqışlağa xüsusi bir komissiya göndərmişdilər. Onlar hər yerə burunlarını soxur, işçiləri sorğu-suala tutur, adamları az qala təhqir edirdilər. Onaların arasından bir məmur hikkə ilə Ramizdən haralı olduğunu soruşdu və onun Bakıdan. Azərbaycandan gəldiyini biləndə:

– Görürəm Bakı neftçiləri Qazaxstandakı neft hasilatında fəal iştirak edirlər. Sonra da bəzi sözlər dedi. Ramiz isə ona çox diqətlə qulaq asdı, sakitcə belə bir cavab verdi:

– Biz Bakı neftini Moskvaya hədiyyə erdik, indi də qazaxların neftini sizə daşımağa kömək edirik.

Bu sözlər məmuru bərk tutdu, qıp-qırmızı qızardı və dönüb hirsli-hirsli Ramizə dedi:

– Əgər 37-ci il olsaydı, bu sözlərinə görə səni güllələyərdilər!

Ramiz də söz altda qalmadı:

– Siz ömrünüz boyu sözün düzünü deyənləri güllələmisiniz! Mənsə həmişə milli nemətlərimizi əlimizdən alanlara nifrət etmişəm. Elə buna görə də bir vaxt Moskvanın gülləsinə tuş

gələcəyimi istisna etmirəm, – deyib o məmurdan uzaqlaşdı. Məmur heyrətlə onun arxasınca baxdı.

İndi o əhvalatdan çox illər keçir. Ramizin bu mistik hissiyatının nə qədər güclü və həqiqətə uyğun olduğunu illər keçəndən sonra dərk edirəm. Qazaxstandan sonra bizim dostluğumuz daha da mökəmləndi. Biz ailəliklə tez-tez bir-birimizin evinə qonaq gedərdik.

Ramizin gözəl ailəsi vardı. Həyat yoldaşı Şövkət xanım mənim dostuma, qardaşıma layiq nəcib, ləyaqətli, mehriban, gülərüz bir xanım idi. Dörd uşaq anası üçün qonaq qəbul etmək çətin olsa da o heç vaxt bunu biruzə verməz, həmişə bizi üzügülər qarşılayardı.

Hal-hazırda Şövkət xanım Azərbaycan Qadın və iİnkişaf mərkəzində çalışır, ictimai işlərdə fəal iştirak edir.

90-cı illərdə işimlə əlaqədar mən Rusiyaya köçməli oldum. Yanvarın 15-də Ramiz mənə zəng etdi ki. 20-də gəlirəm. Mən onu səbirsizliklə gözləyirdim. O mənə uçacağı təyyarənin reysini demişdi, ona görə də əziz dostumu qarşılamaq üçün aeroporta getdim.

Ancaq gələn sərnişinlər arasında Ramiz yox idi. Çox təəccübləndim, həm də narahat oldum. Axı, Ramiz heç vaxt vədinə xilaf çıxmamışdı. Bakıya zəng vurdum. Bakıdan mənə çox həyacanlı xəbərlər verdilər. Sən demə həmin gün Sovet hərbi hissələrinin xüsusi təlim keçmiş dəstələri Bakıya soxularaq mənim sevimli şəhərimi qan gölünə çeviriblər. Şəhərə tanklar yeridilib. Çoxlu təlafat var. Ramiz də o gecə şəhid olub.

Yaxın dostumu itirdiyimə inana bilmirdim. Xəyalım çox uzaqlara getmişdi. Onun məmura dediyi sözləri xatırladım. Bir daha əmin oldum ki, ağıllı insanlar öz ölümlərini əvvəlcədən görürlər...

Onun dəfnində iştirak etmək üçün təcili Bakıya uçdum Dəfn mərasimi gözlənildiyindən də təmtəraqlı keçdi. Hələ Suraxanı öz tarixində belə bir matəm görməmişdi.

Atam Kərim Mehdiyev Ramizin məzarı başında alovlu nitq söylədi. O respublikada hamının tanıdığı hörmətli şəxslərdən

biri idi. Uzun illər məsul vəzifələrdə işləmişdi. Köhnə kommunistlərdən sayılırdı. Partiya biletini də heç kəsə etibar etmir, həmişə ürəyinin üstündə gəzdirirdi.

Atam illər boyu sədaqətlə qulluq etdiyi bir partiyanın öz xalqına qarşı bu amansızlığına, xəyanətinə dözə bilmədi, hamının gözü qarşısında partiya biletini çıxartdı, onu parça-parca eləyib yerə tökdü:

– Bundan sonra, mən belə qaniçənlərlə bir partiyada ola bilmərəm, – dedi atam. Bir il sonra isə baş verən hadisələrlə barışmayaraq dünyasını dəyişdi.

İllər keçdi. Bir dəfə Rusiyada təsadüfən bir serjantla söhbət edəsi oldum. O Bakı qırğınında iştirak etdiyini söylədi.

Onun sağ qolu şikəst idi. Fikirləşdim ki, bundan çox şey öyrənə bilərəm. Bir az da onu sorğu-suala tutandan sonra mənə hər şey aydın oldu. Bakıdakı qırğın zamanı bəzi yerlərdə atışma olubmuş, həmçinin də Yeni Suraxanı ərazisində. O həvəslə insanları öldürdüklərindən, sonra da singü ilə dəlik-deşik etdiklərindən danışırdı. Mən şoka düşmüşdüm. Bəlkə Ramizi də elə bunun atdığı güllələr ölümcül yaralamışdı. Bəlkə Ramizin ölümünə elə bu alçağın atdığı güllələr səbəb olub. Daha dözməyib Bakıdan olduğumu, hətta Yeni Suraxanıda doğulub böyüdüyümü, bu qırğında çox yaxın dostumu itirdiyimi söylədim. O başını aşağı salıb:

– Məndən incimə, mənim nə günahım var? Mən əsgərəm, əmri yerinə yetirmək məcburiyyətindəyəm, – deyib özünə bəraət qazanmağa çalışdı və mənim qəzəbli baxışlarım altında yumağa çevrilərək, tələsik məndən uzaqlaşdı.

Artıq o gecədən 20 il keçir Mən də hər il Yanvarın 20-də onun məzarını ziyarət edirəm. Allah dostumun qəbrini nurla doldursun! Amin!

***Zakir Kərim oğlu Mehdiyev,***
***dostu***









* * *

20 Yanvar dedikdə hər bir Azərbaycan vətəndaşının təsəvvüründə həmin qanlı gecə ganlanır, xalqımızın başına gətirilən müsibətlər yada düşür. O gecə insanlıq simasını itirmiş quldurlar, azğınlaşmış köpək sürüsü kimi resbublikamızın üstünə cuman vəhşilər neçə-neçə körpəni atasız, anaları övladsız, bacıları qardaşsız, qadınalrı ərsiz qoydular.

Nə qədər adam şikəst oldu, mənəvi zərbə aldı, qalan ömrünü əlil arabasında yaşamağa məhkum edildi, o gecənin əzabları bu gün də ürəkləri ağrıdır, illər ötsə da yaraları qaysaq bağlamır, sağalmır. Yəqin ki, Azərbaycan xalqı yaşadıqca, var olduqca bu faciənin izləri də tariximizin qanlı səhifəsi kimi daim xatırlanacaq.

Mən bu hadisələrin canlı şahidi olmamışam. Mən dünyaya həmin gecədən 2 ay sonra göz açmışam Ancaq ömrüm boyu bu gecəni unutmayacağam. Çünki həmin gecə şəhid olan vətənpərvər Azərbaycan övladları mənim kimi minlərlə körpənin gələcəyi naminə həyatını qurban verdi.

2000-ci ilin yanvar ayında məni və 1990-cı il təvəllüddən olan məktəb yoldaşlarımı Respublika sarayında keçiriləcək tədbirə dəvət etdilər. Mən o zaman 4-cü sinifdə oxuyurdum. O tarixi gündə ulu öndərimiz Heydər Əliyev də iştirak edirdi.

20 Yanvar şəhidlərinin 10 illik anım mərasimində nümayiş etdirilən çox təsirli bir göstəridən sonra səhnəyə çıxış üçün xanım dəvət olundu. Onun həyat yoldaşı şəhid olmuşdu. Dörd övlad anası olan bu mərd, qururlu və mübariz Ana 20 Yanvar gecəsindən sonra yaşadığı hisləri, duyğuları dilə gətirəndə bütün salona dərin bir sükut çökmüşdü. O təkcə öz ailəsinin yaşantılarından, öz həyat yoldaşından danışmırdı, bütövlikdə şəhid ailələrinin üzləşdiyi problemlərdən, qayğılardan söz açırdı. Natiq bütün çıxışı boyu öz təmkinini, qururunu saxladı, kövrəlmədi,

ağlamadı, başını dik tutdu, salona toplaşan gənclərə vətəni sevməyi, onu göz bəbəyi kimi qorumağı, düçmənə qarşı amansız olmağı, yeri gələndə torpaq uğrunda şəhid olmağı tövsiyyə etdi.

Bütün həmyaşıdlarım kimi o qadına heyranlıqla qulaq asırdım və elə bilirdim ki, bu an mən də sinəmi düşmən tankına sipər etmək qüdrətindəyəm, gözümü belə qırpmadan ölümə getməyə hazıram.

O xanım sözünü bitirib alqış sədaları altında səhnədən endi camaatın həsrət dolu baxışları altında özyerinə doğru getdi. Həmin dün mən çox istəsəm də onunla yaxından tanış ola bilmədim, ancaq onu öyrəndim ki, onun adı Şövkət xanım Xanməmmədovadır. Şövkət xanım 20 Yanvar gecəsi həyat yoldaşı Ramizi öz qucağında xəstəxanaya gətirib. Bütün səylərə rəğmən onu xilas etmək mümkün olmayıb və bu cəfakeş xanım mərdi-mərdanə öz övladlarını atalarının adına layiq böyütməyə çalışır.

İllər sonra mən Şövkət xanımla təkrar üz-üzə gəldim. Bizim görüşümüz Azərbaycan Respublikası İnsan Haqları üzrə müvəkkil – ombudsman - Elmira xanım Süleymanovanın "Azərbaycan Qadın və İnkişaf Mərkəzi" nəznində yaratdığı ilk uşaq təşkilatı – "Azərbaycan: Uşaqdan-Uşağa Sülh" Şəbəkəsində oldu.

Təbii ki, mən bu görüşə və əyani tanışlığa çox sevindim. Onu da deyim ki, mən indi Şövkət xanımın hər uğuruna sevinən bir gəncə çevrilmişəm. Şövkət xanımla ünsiyyətdə olduğum zaman həmişə onun saraydakı çıxışından heyrətləndiyimi, təsirləndiyimi qeyd edirəm. Şövkət xanım təşkilatımızda da davamlı olaraq uşaqlarla görüşür və hər zaman səmimi tövsiyyətləri, müdrik məsləhətləri ilə köməyimizə çatır. Mən də çalışıram ki, onun apardığı söhbətlərdə müntəzəm iştirak edim, onun nəsihətlərindən bəhrələnim.

Mən bir gənc olaraq onun Azərbaycan Qadın və İnkişaf Mərkəzinin vitse-prizidenti vəzifəsinə qədər yüksəlməsinin, qazandığı digər uğurların nə qədər zəhmət və məsuliyyət tələb etdiyini yaxşı başa düşürəm. Təbii ki, Şövkət xanım bunların öhdəsindən bacarıqla gəlir, yorulmur, usanmır, hər halda bunu büruzə vermirdi heç vaxt. Ailə başçısını itirmiş bir qadın bu illər ərzində ocağını sönməyə imkan vermədi, əksinə, onu daha da alovlandırmağı bacardı. İndi Şövkət xanımın övladları valideynlərinin adı, əməlləri ilə fəxr edirlər. Nəinki övladları, həm də mənim üzv olduğum bu şəbəkənin üzvləri adından deyə bilərəm ki, biz hamımız Şövkət xanımın dəyərli fikirlərindən həmişə bəhrələnirik

Deyirlər tarix o vaxt yaddaşlarda qalır ki, o bədiiləşsin. Şövkət xanımın Qanlı yanvar şəhidlərinin xatirəsinə həsr etdiyi bu kitab da təkcə həyat yoldaşının deyil, həmin gecə vətən uğrunda canından keçən hər bir şəhidin yaşadığı ömür yolunun bir parçadır. Ümidvaram ki, bu kitabı oxuyan hər bir kəsin təsəvvüründə həmin hadisələr yenidən canlanacaq və hər kəsin qəlbində yaşayan vətənpərvərlik duyğuları daha da alovlanacaq.

Mən Şövkət xanıma uzun ömür cansağlığı, işlərində yeni-yeni uğurlar arzu edirəm. Xalqıma da məhz Şövkət xanım kimi mərd, qeyrətli, vətən üçün və vətənin övladları üçün bütün gücünü, əməyini sərf edən qadınlar, analar, xanımlar arzu edirəm Çünki belə qadınlarımızın sayı nə qədər çox olsa, gənclərin vətən məhəbbəti, müstəqil dövlətimizi müdafiə əzmi bir o qədər yüksək olar.

***Kənan Bağırov,***
***UUSŞ-nin üzvü, Azərbaycan Kooperasiya***
***Universitetinin 3-cü kurs tələbəsi.***

* * *

20 yanvar hadisələri zamanı və sonrakı hadisələr dövründə tökülən qanlar Azərbaycan xalqının iradəsini, azadlıq əzmini nəinki qırmış, əksinə, daha da artırmışdı. Ölkəmizin müstəqillik tarixi qanla yazılsa da, bir sınanmış həqiqət də var ki, mübarizə ilə qurbanlar verərək qazanılan azadlıq daha şirin, daha əziz, daha uzun ömürlü olur

Deyirlər ki, "Torpaq uğrunda ölən varsa, Vətəndir!". Vətənin ana Vətən, Torpağın əziz məkan, Yurdun doğma məskan olması üçün onu sevmək, qorumaq müdafiə etmək vacib şərtdir. Milli yaddaşımızın əbədi-yaşar abidəsi olan "Kitabi Dədə Qorqud" dastanında Qorqud Dədə deyir ki: "Torpağı əkib-becərməsən qorumağa, qorumasan əkib-becərməyə dəyməz!"

İnsanın döğulub boya-başa çatdığı yurdun, torpağın Vətən olması üçün onu təmənnasız bir məhəbbətlə sevməyi, uğrunda canından keçməyi bacarmaqla mümkündür. Biz də Azərbaycanımızın, qədim Odlar yurdunu belə bir məhəbbətlə sevduyumizi dəfələrlə sübüt eləmişik. Bu Torpağın hər qarışına şəhid qanı çilənib, tarixin yaddaşına köçən bir sıra hadisələri, yadellilərin hücumlarını, yurdumuza göz dikən yağılara qarşı xalqın üsyanlarını xatırladıb vaxtınızı çox almaq istəmirəm. Tanrı zaman-zaman bizim xalqı imtahana çəkib, onu sınaqdan keçirib, millətin millət kimi formalaşmasına, özünütəsdiqinə imkan verən burulğanlardan qurtarıb.

Bizim nəslin qismətində iki əsrin qovuşağında yaşamaq, iki ictimayi formasiyanın, quruluşun ağrı-acılarını, sevinc və kədərini hiss etmək, duymaq qisməti düşüb. Ötən yüzilliyin həm əvvəlində, həm də sonuncu onilliyində bizim müllətimizin başına gətirilən müsübətləri bəlkə də yaxın və uzaq

qonşularımızdan heç biri heç vaxt bu dəhşətdə, bu ağırlıqda, bu ciddiyyətdə yaşamayıb.

1990-cu ulin Qanlı şənbə gecəsində də Azərbaycan xalqı minillik qəhramanlıq tarixinin yeni səhifəsini yazdı. O soyuq, qan, ölüm qoxulu gecənin, müasir Azərbaycan tarixinə Qara Yanvar kimi düşən gecəninin dəhşətləri, ağrıları üstündən 20 il keçməsinə baxmayaraq bu gün də yaddaşlardan silinmir. Hər il yanvarın 20-də yüzminlərlə insanın qəlbini titrədən, ruhunu tarıma çəkən, yaddaşını oyalayan bu geçənin şəhidləri unudulmur, şahidlərinin xatirəsi hər dəfə yeni detallarla, yeni faktlarla zənginləşir. Mənə elə gəlir ki, Qanlı Yanvar gecəsində baş verənlərin əsl mənzərəsi hələ də tamamilə açılmayıb.

Ancaq Azərbaycanda elə bir ailə, elə bir insan tapılmaz ki, o gecənin ağrılarını unutsun.

Həmin gecə, əgər belə demək mümkünsə, ön cəbhədə olan, hadisələri öz gözləri ilə görən, o soyuq, şaxtalı gecədə ora-bura çovan güllələrdən adi təsadüf nəticəsində yaxa qurtaran insanların yaddaşında bu gün də sızıltılı bir xatirə kimi yaşamaqdadır. Şəhidlər bir dəfə sinələrini düşmən gülləsinə sipər etdilər, şahidlərsə...biz şahidlərsə hər gün, hər saat, hər an sinəmizdə və yaddaşımızda o ağrını, o güllələrin göynərtisini hiss edirik.

Deyirlər zaman ən qüdrətli loğman, vaxt ən gözəl dərmandır. Düzdür vaxt ötdükcə yaralarımız qaysaq tutdu, o gecənin dəhşətləri bir qədər ikinci plana keçdi, həyat davam elədi, şəhidlərin ailələri özlərində güc, qüvvə tapıb ayağa qalxdılar, uşaqlar atasız, analar oğulsuz dünyanın manelərlə dolu həyat yolunda addımlamağa başladılar. Ancaq yola saldığımız illər bizə 20 Yanvar faciəsini unutdura bilmədi.

O gün cavanlarımız silahla deyil, ölümləri ilə ölüm saçan tanklara meydan oxuyarkən artıq əbədiyyətin, ölümsüzlüyün

şah zirvəsinə – yəni ölümdən yüksəkdə dayanan şəhidlik zirvəsinə qədəm qoyduqlarının fərqində idilər. Onlar həmin gecə Şəhidlik libası geyinmişdilər, Vətən uğruda şəhid olmağı ən böyük İnsanlıq, kişilik şərəfi saydılar.

Bu gün Şəhidlər xiyabanı bizim and yerimiz, 20 Yanvar gecəsi isə qatillərimizə, düşmənlərimizə nifrət gecəsi kimi yaddaşlara həkk olunacaq. Azərbaycan o gecə yüzlərlə övladını itirsə də, tarixin bu qanlı sınağından da alnıaçıq, üzü ağ çıxdı. Biz İmperiya vassallarına bir daha sübut elədik ki, azərbaycan xalqının əzmini, polad iradəsini heç kəs qıra bilməz. Hətta gecənin qoynuna soxulan, minlərlə gəncin ömrünü yarımçıq qoyan, küçələrini xarabazara çevirən, evlərini, xəstəxanalarını, insan hənirtisi gələn hər kolu, addım səsi eşidilən hər dalanı atəşə tutan cəlladların bizim mübarizə əzmimizi öldürməyə gücü çatmadı. Bu bizim Şəhidlərimiz öz ölümləri ilə Ölümün özünü öldürdülər.

20 il öncə göz yaşı, qəhər ilə yaşadığımız günlər indi qürur günü kimi anılmaqdadır O gün nə iqtidar vardı, nə də müxalifət O gün bir yumruq kimi birləşib çağrılmamış “qonaqların” – topu-tüfəngi ilə üstümüzə od yağdıranların qarşısını kəsməkdə israrlı olan Xalq vardı, Vətən adlı müqəddəs bir varlıq vardı, uğrunda şəhid olmağa dəyən doğma Azərbaycan vardı.

Nə yaxşı dünyada müqəddəs Vətən,
Nə yaxşı müqəddəs ahd yerimiz var.
Yox yox ağlamıram bu ölümə mən
Namuslu oğullar şəhid olurlar...

Müasir Azərbaycanın azadlığı 20 Yanvar ağrısından, 20 Yanvar qeyrətindən doğuldu. Bu azadlığı bizə qazandıran isə Şəhid oğullarımız oldu. Sonralar bu gecə barədə, kimin haqlı,

kimin günahkar olması barədə mübahisələr, rəylər, söz-söhbətlər çox olacaqdı. Ancaq bu polemikaların heç birinin o günahsız şəhidlərilə aidiyyatı yoxdur. O gecə Vətən darda idi, o gecə Vətən öz vətəndaşlarından imdad istəyirdi, o gecə bir millətin, bir xalqın müqəddaratı həll olunurdu. O igidlər də bu çağrışa birincilər sırasında səs verdilər, canlarını Vətənə qurban verməyi bacardılar.

Bəs biz, sağ qalan şahidlər, şəhid ailələrinə bu güngü firəvanlığımızın, azadlığımızın müqabilində nə verdik? Əlbəttə, onlara şəhidlərinizin xatirəsinə diqqət və qayğıdan başqa heç bir şey lazım da deyil Onların xatirəsinin əziz tutulması ən böyük təsəllidir, ən vacib qayğıdır, ən məhrəm mərhəmətdir. Şəhid ailələri bir daha əmin olurlar ki, itirdikləri əziz insanlar yalnız öz ailələrinə, öz kənd və rayonlarına, şəhər və qəsəbələrinə deyil, bütün xalqa, millətə başucalığı gətiriblər, onların qürür və iftixar ünvanına çevriliblər.

Biz artıq 20 ildir ki, Bakının ən uca yeridə qərar tutmuş Şəhidlər xiyabanını ümummilli ziyarətgaha çevirmişik Orada şəhidlərin adına layiq abidə ucaldılıb. Bu abidə təkcə Şəhidlər xiyabanı kompleksinin ayrılmaz hissəsi deyil, həm də Azərbaycanın müstəqillik rəmzinə çevrilmiş bir abidədir.

Övladlıq borcunu şərəflə yerinə yetirmış şəhidlərimizi həmişə hörmət və məhəbbətlə, iftixar və qürurla yad edən Vətənimizin qədirbilən övladları qarşısında baş əyirəm.

Bəzən düşünürəm ki, görəsən o qanlı şənbə gecəsində qəddar düşmənin gülləsinə tuş gələnlər sağ qalsaydılar, bu gün hansı işləri görər, canları qədər sevdikləri Vətənini tərəqqisi naminə nələr edərdilər?

Yəqin ki, İlqarlar, İlhamlar, Ülvilər neçə-neçə şeir kitabının müəlləfi, ya da ali təhsilli mütəxəssis olardılar, müstəqil Azərbaycanımızın layiqli övladları kimi ad-san qazanardılar.

Farizələr, İlhamlar oğul qız böyüdərdilər. Ya da Qarabağ cəbhələrində mənfur erməni işğalçıları ilə savaşa atılardılar, yenə şəhid olardılar. Çünki bu igidlər Tanrının verdiyi ömür payını şərəflə yaşamaqdan özgə yol tanımırdılar.

Mən yazıçı olmasam da qələmə aldığım bu kiçik povesti həm ömür-gün yoldaşım Cəbrayıl (Ramiz) Xanməmmədova və Azərbaycanın azadlığı uğrunda həlak olmuş bütün şəhidlərimizin xatirəsinə həsr edir və onların müqəddəs ruhu qarşısında ehtiramla baş əyirəm.

***Şövkət Xanməmmədova,***
***şəhid ailəsi.***

*Milli Kitabxana*

**ŞÖVKƏT XANMƏMMƏDOVA**

# *20-dən 20-yə*

***(20 Yanvar şəhidlərinin əziz xatirəsinə həsr olunur)***

Naşir: Rafiq Xan-Sayadoğlu
Texniki redaktor: Ülvi Arif
Bədii redaktor: İradə Əhmədova
Dizayner: Ceyhun Əliyev
Operator: Səadət Abbasova

Yığılmağa verilmişdir: 27.12.2009
Çapa imzalanmışdır: 11.01.2010
Tiraj 500; ş.ç.v. 6
«MBM» MMC mətbəəsində
çap olunmuşdur